# AVROPA ŞURASI
NAZİRLƏR KOMİTƏSİ

**Əlil insanların hüquqlarının və cəmiyyətdə tam iştirakının dəstəklənməsi: 2006-2015-ci illər ərzində əlil şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə Avropa Şurasının Tədbirlər Planına dair Nazirlər Komitəsinin üzv dövlətlərə tövsiyəsi**

*(5 aprel 2006-cı il tarixində Nazirlər Komitəsi tərəfindən nazir müavinlərinin 961-ci yığıncağında qəbul edilmişdir)*

Nazirlər Komitəsi,

Sosial və mədəniyyət sahələrində Avropa Şurasının fəaliyyətinin genişləndirilməsinə dair 16 noyabr 1959-cu il tarixli, (59) 23 saylı Qətnaməsini;

Sosial və İctimai Səhiyyə sahəsində Natamam Razılaşmanı yeniləşdirən, onun strukturunu dəyişən və (59) 23 saylı Qətnamədə əks olunan köhnə qaydaları əvəz edərək yeni qaydalar əsasında tam hüquqlu vətəndaşlıq və müstəqil həyat prinsiplərini əsas götürməklə əlil insanlar üçün Avropa miqyasında sistemli siyasət modelinin müəyyən edilməsini və həyata keçirilməsini dəstəkləyən, onların cəmiyyətə inteqrasiya edilməsi məqsədini daşıyan və qeyd edilən Qətnamənin tələblərinə uyğun hazırlanan və həyata keçirilən tədbirləri davam etdirməkdə qətiyyətli olan, eləcə də mahiyyətindən asılı olmayaraq psixoloji, təhsil, ailə, mədəni, sosial, peşə, maliyyə və ya memarlıq baxımından olan bütün maneələrin aradan qaldırılmasını şərtləndirən 2 oktyabr 1996-cı il tarixli (96) 35 saylı Qətnaməni nəzərə alaraq;

Avropa Şurasının məqsədinin üzv dövlətlər arasında daha sıx birliyə nail olmaq olduğunu və bunun üçün, *eyni zamanda*, siyasi, sivil, mədəni və təhsil hüquqlarının qorunmasının dəstəklənməsi istiqamətində əlillik siyasəti üzrə ümumi qaydaların qəbul oluna bildiyini nəzərə alaraq;

İnsan Hüquqları və Fundamental Azadlıqlarının Qorunması üzrə Konvensiyaya (ETS No. 5) əsaslanaraq;

Yendən Baxılmış Avropa Sosial Xartiyasının (ETS No. 163), xüsusilə, əlil insanların müstəqillik, sosial inteqrasiya və icmanın həyatında iştirak hüququna dair prinsiplərini əsas gətirərək;

Əlil İnsanlar üçün Bərabər İmkanların Yaradılması üzrə Birləşmiş Millətlər Təşkilatının (BMT) Standart Qaydalarını (1993) vurğulayaraq;

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Funksiya, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifatını (IFC 2001) nəzərə alaraq;

Beynəlxalq Əmək Təşkilatının (BƏT) Peşə Reabilitasiyası və Məşğulluğa dair (əlil şəxslər üçün) Konvensiyasına (No. C159), 1983, habelə, BƏT-in Peşə Reabilitasiyası və Məşğulluğa dair (əlil şəxslər üçün) müvafiq Tövsiyəsinə (No R168 1983) əsaslanaraq;

Əlil insanlar üçün sistemli siyasətə dair Nazirlər Komitəsinin üzv dövlətlərə Tövsiyəsini (No R(92) 6) nəzərə alaraq;

7-8 may 2003-cü il tarixində İspaniyanın Malaqa şəhərində təşkil edilmiş əlil insanlar üçün inteqrasiya siyasətləri üzrə məsul olan Nazirlərin İkinci Avropa Konfransında qəbul edilmiş Əlil İnsanlara dair "Vətandaş kimi tam iştirakın əldə edilməsinə doğru" Nazirlər Bəyannaməsini əsas gətirərək;

17 may, 2005-ci il tarixində Avropa Şurasının Dövlət və Hökumət Rəhbərlərinin Üçüncü Varşava Sammitində qəbul edilmiş (CM(2005)80 yekun) və növbəti illər ərzində qurumun rolunu və əsas öhdəliklərini müəyyən edən Tədbirlər Planını nəzərə alaraq;

Avropa Şurası Parlament Assambleyasının 1592 saylı "Əlil insanların tam sosial inteqrasiyasına doğru" Tövsiyəsinə (2003) əsaslanaraq;

Bütün insan hüquqları və fundamental azadlıqlarının ümumiliyini, bütövlüyünü və qarşılıqlı asılılığını, həmçinin, heç bir diskriminasiya olmadan əlil insanlar üçün bu hüquqlardan tam istifadə imkanlarının yaradılması zəruriliyini diqqətə çatdıraraq;

Əlil insanların Avropanın ümumi əhalisinin 10-15%-ni təşkil etdiyini, əsas əlillik səbəblərinin xəstəliklər, bədbəxt hadisələr və yaşlıların əlillik vəziyyətinin olduğunu, eyni zamanda, ömür müddətinin artması səbəbindən əlil şəxslərin sayının davamlı olaraq artacağı ehtimalını nəzərə alaraq;

Əlil vətəndaşların hüquqlarının qorunmamasının və bərabər imkanların yaradılmamasının insanın şərəf və ləyaqətinə hörmətsizlik oldğunu vurğulayaraq;

Cəmiyyətin bütün üzv qrupları üçün bərabər imkanların təmin edilməsinin demokratiya və sosial həmrəyliyin əldə edilməsinə xidmət etdiyini nəzərə alaraq;

Əlil insanların cəmiyyətə tam inteqrasiyasının və onun həyatında iştirakının təmin edilməsi üzrə insan hüquqları yanaşmasının beynəlxalq, milli, regional və yerli səviyyələrdə bütün müvafiq siyasət sahələri ilə əlaqələndirilməli olduğunu diqqətə çatdıraraq;

Sistemli siyasətlər və əlaqələndirilmiş tədbirlər vasitəsilə əlillik məsələlərinin bütün sektorlarda ön plana çəkilməsi ehtiyacını vurğulayaraq;

Əlillik üzrə sözügedən Tədbirlər Planının hazırlanması istiqamətində Avropa Şurasının Əlil İnsanların Reabilitasiyası və İnteqrasiyası Komitəsinin (CD-P-RR) gördüyü işləri yüksək dəyərləndirərək;

Əlillik üzrə Tədbirlər Planının həyata keçirilməsi və izlənilməsi üçün əlil insanların qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın yaradılmasının əhəmiyyətini vurğulayaraq;

Üzv dövlətlərin hökumətlərinə və onların xüsusi milli, regional və ya yerli strukturlarına, habelə aşağıdakı istiqamətlər üzrə müvafiq öhdəliklərinə lazımi diqqətin yetirilməsini tövsiyə edir:

a. tövsiyənin əlavə bölməsində verilən Əlil insanların hüquqlarının və cəmiyyətdə tam iştirakının dəstəklənməsi: 2006-2015-ci illər ərzində əlil şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə Avropa Şurasının Tədbirlər Planında göstərilən prinsipləri müvafiq siyasət, qanunvericilik və tədbirlər planına daxil etmək və həyata keçirmək;

b. hökumət strukturlarının birbaşa məsul olmadığı, lakin bununla belə, müəyyən səlahiyyətə və ya rola malik olduğu sahələrdə Avropa Şurasının Əlillik üzrə Tədbirlər Planının (2006-2015) icrasını və tətbiqini dəstəkləmək;

c. ictimai maarifləndirmə kampaniyaları və xüsusilə, əlil insanların qeyri-hökumət təşkilatlarını cəlb etməklə özəl sektor və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq vasitəsilə bütün maraqlı tərəflər arasında bu tövsiyələrin mümkün qədər geniş səviyyədə təbliğini təmin etmək.

*5 aprel 2006-cı il tarixli tövsiyəyə əlavə*

**Əlil insanların hüquqlarının və cəmiyyətdə tam iştirakının dəstəklənməsi: 2006-2015-ci illər ərzində əlil şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə Avropa Şurasının Tədbirlər Planı**

Mündəricat


1. İcmal

2. Giriş

3. Əsas fəaliyyət istiqamətləri

   3.1. Fəaliyyət istiqaməti No. 1: Siyasi və ictimai həyatda iştirak
   3.2. Fəaliyyət istiqaməti No. 2: Mədəni həyatda iştirak
   3.3. Fəaliyyət istiqaməti No. 3: İnformasiya və kommunikasiya
   3.4. Fəaliyyət istiqaməti No. 4: Təhsil
   3.5. Fəaliyyət istiqaməti No. 5: Məşğulluq, peşə təlimatları və təlim
   3.6. Fəaliyyət istiqaməti No. 6: Fiziki infrastruktur
   3.7. Fəaliyyət istiqaməti No. 7: Nəqliyyat
   3.8. Fəaliyyət istiqaməti No. 8: İcma həyatı
   3.9. Fəaliyyət istiqaməti No. 9: Səhiyyə
   3.10. Fəaliyyət istiqaməti No. 10: Reabilitasiya
   3.11. Fəaliyyət istiqaməti No. 11: Sosial müdafiə
   3.12. Fəaliyyət istiqaməti No. 12: Hüquqi müdafiə
   3.13. Fəaliyyət istiqaməti No. 13: Zorakılıq və təhqir hallarına qarşı müdafiə
   3.14. Fəaliyyət istiqaməti No. 14: Tədqiqat və inkişaf
   3.15. Fəaliyyət istiqaməti No. 15: Məlumatlılığın artırılması

4. Kəsişən məsələlər

   4.1. Giriş
   4.2. Əlil qadın və qızlar
   4.3. Daha çox qayğıya ehtiyacı olan əlil insanlar
   4.4. Əlil uşaq və gənclər
   4.5. Yaşlı əlillər
   4.6. Etnik azlıqları və miqrantları təmsil edən əlil insanlar

5. İcra və nəzarət

   5.1. Giriş
   5.2. İcra
   5.3. Nəzarət

Əlavə 1 7-8 may 2003-cü il tarixində İspaniyanın Malaqa şəhərində təşkil edilmiş əlil insanlar üçün inteqrasiya siyasətləri üzrə məsul olan Nazirlərin İkinci Avropa Konfransında qəbul edilmiş Əlil İnsanlara dair "Vətandaş kimi tam iştirakın əldə edilməsinə doğru" Nazirlər Bəyannaməsi

Əlavə 2 İstifadə edilən mətnlər

# 1. İcmal

## 1.1. *Missiya*

### *1.1.1. Əlil insanlara dair Malaqa Nazirlər Bəyannaməsi*

1992-ci ildə əlil insanlara dair siyasətlər üzrə məsul olan Nazirlərin I Avropa Konfransından sonra Nazirlər Komitəsi tərəfindən əlil şəxslərə dair sistemli siyasət üzrə R (92)6 saylı Tövsiyə qəbul edilmişdir.

Bu qəbildən ilk sənəd olan sözügedən tövsiyə 10 ildən artıq bir müddət ərzində əlillik siyasətlərinə təsir göstərmiş və əlil insanların həm milli, həm də beynəlxalq səviyyədə faydalana bildiyi yeni inkluziv siyasətlərin yaradılmasına təkan vermişdir.

Lakin, cəmiyyətdə böyük dəyişikliklər baş verdiyi üçün növbəti 10 il müddətində əlillik məsələləri üzrə sosial və insan hüquqlarına əsaslanan yanaşmanın inkişaf etdirilməsi üçün yeni strategiyalar tələb olunur.

2003-cü ilin may ayında İspaniyanın Malaqa şəhərində təşkil edilmiş əlil insanlara dair siyasətlər üzrə məsul olan Nazirlərin İkinci Avropa Konfrasında əlil insanlara dair "Vətandaş kimi tam iştirakın əldə edilməsinə doğru" adlı Nazirlər Bəyannaməsi qəbul edilmişdir.

Avropada yaşayan əlil şəxslərin insan hüquqlarının qorunması və həyat səviyyəsinin yaxşılaşdırılması məqsədini daşıyan Avropa Şurasının Əlillik üzrə təfsilatlı Tədbirlər Planının hazırlanması istiqamətində müvafiq strategiya müəyyən edilmişdir.

### *1.1.2. Məram və məqsədlər*

Avropa Şurasının 2006-2015-ci illəri əhatə edən Əlillik üzrə Tədbirlər Planı növbəti 10 il müddətində qurumun əlil şəxslərə dair insan hüquqları, qeyri-diskriminasiya, bərabər imkanlar, tam vətəndaşlıq və iştirak ilə bağlı məqsədlərinin Avropanın əlillik siyasəti çərçivəsinə daxil edilməsinə səy göstərir.

Sözügedən Tədbirlər Planının məqsədi hər bir ölkənin xüsusiyyətlərinin nəzərə alınması üçün çevik və uyğunlaşdırıla bilən müfəssəl çərçivənin təmin edilməsindən ibarətdir. Bu sənəd müvafiq planların, proqramların və innovativ strategiyaların hazırlanması, uyğunlaşdırılması, istiqamətinin dəyişdirilməsi və həyata keçirilməsi üzrə siyasətçilərə yardım göstərən "yol xəritəsi" rolunu oynamaq niyyətini daşıyır.

Avropa Şurası tövsiyələr, məsləhətlər və ekspert məlumatları formasında bütün üzv ölkələrə dəstəyin göstərilməsi vasitəsilə Əlillik üzrə Tədbirlər Planının həyata keçirilməsinə çalışacaqdır.

## 1.2. *Fundamental prinsiplər və strateji məqsədlər*

### *1.2.1. Fundamental prinsiplər*

Üzv dövlətlər anti-diskriminasiya və insan hüquqları çərçivələrində əlil insanların müstəqilliyinin, seçim azadlıqlarının və həyat səviyyəsinin yüksəldilməsi, eləcə də, əlilliyin insan müxtəlifliyinin bir hissəsi olduğu barədə məlumatlılığın artırılması istiqamətində fəaliyyətlərini davam etdirəcəkdir.

Avropada və beynəlxalq səviyyədə mövcud olan mexanizmlərə, müqavilələrə və planlara, xüsusilə də, əlil insanlara dair BMT-nin Konvensiya layihəsində əks olunan məqamlara lazımi diqqət yetirilmişdir.

Avropa Şurasının Sosial İnteqrasiya üzrə Yeni Strategiyası (2004) uşaqlar və gənclər, miqrantlar və etnik azlıqlar, əlil və yaşlı insanlar kimi həssas olmaq təhlükəsi ilə üzləşən şəxslərin insan hüquqlarının təmin edilməsi istiqamətində xüsusi səylərə ehtiyacın olduğunu diqqətə çatdırır.

Əlillik üzrə Tədbirlər Planı sağlam həyat tərzinin, təhlükəsiz mühitin, müvafiq səhiyyə, reabilitasiya və yardımçı sistemlərin fəal surətdə dəstəklənməsi vasitəsilə əlilliyin təsirinin minimuma endirilməsinin təmin edilməsi istiqamətində cəmiyyətin bütün vətəndaşlar qarşısında məsuliyyət daşıması barədə əsas prinsipi bir daha təsdiq edir .

*1.2.2. Strateji məqsədlər*

Əlillik üzrə Tədbirlər Planının əsas məqsədi əlil insanların cəmiyyətdə tam şəkildə iştirakının təmin edilməsi istiqamətində səmərəli strategiyaların hazırlanması və həyata keçirilməsi üzrə praktik alət rolunu oynamaqdan və nəticə etibarilə, üzv dövlətlərin bütün siyasət sahələrində əlillik məsələsinin gündəmə gətirilməsindən ibarətdir. Tədbirlər Planı hər bir ölkə üçün səciyyəvi olan şəraiti, eləcə də müxtəlif üzv dövlətlərdə baş verən keçid proseslərini nəzərə alacaqdır.

O, ölkə səviyyəsində xüsusi tədbirlərin həyata keçrilməsinə dair tövsiyələri əhatə edir və sahələrarası yanaşma tələb edən xüsusi maneələr və problemlərlə üzləşən həssas əhali qrupunun xüsusiyyətlərini göstərir.

Bu plan keyfiyyətli və innovativ xidmətlər təmin etmək, habelə, artıq mövcud olan tədbirləri gücləndirmək vasitəsilə əlil insanların ehtiyaclarının qarşılanması istiqamətində üzv dövlətləri dəstəkləyir.

Tədbirlər Planı özəl şirkətlər, qeyri-hökumət təşkilatları və digər beynəlxalq qurumlar üçün səmərəli stimul mənbəyi olacaqdır. O, əlil insanların qeyri-hökumət təşkilatlarına onların həyatı ilə bağlı qərar qəbulu prosesində maraqlı tərəf qismində rəyi soruşulan siyasətin hazırlanması üzrə səlahiyyətli ekspert kimi baxır. Ölkə səviyyəsində əldə edilən uğurların müəyyən edilməsi və səmərəli təcrübə mübadiləsinin aparılması məqsədilə, Tədbirlər Planının icrası istiqamətində müntəzəm monitorinq və qiymətləndirmələr həyata keçiriləcəkdir.

### *1.3. Əsas fəaliyyət istiqamətləri*

Avropa Şurasının Əlillik üzrə Tədbirlər Planı əlil insanların həyatının bütün əsas tərəflərini əhatə edən geniş miqyasa malikdir. Sözügedən əsas tərəflər üzv dövlətlər tərəfindən həyata keçiriləcək əsas məqsədlər və xüsusi istiqamətlər müəyyən edən 15 tədbirdə tam şəkildə əks olunmuşdur.

Bu fəaliyyət istiqamətləri Tədbirlər Planının əsasını təşkil etməklə aşağıdakı sahələri əhatə edir:

– No. 1: Siyasi və ictimai həyatda iştirak;
– No. 2: Mədəni həyatda iştirak;
– No. 3: İnformasiya və kommunikasiya;
– No. 4: Təhsil;
– No. 5: Məşğulluq, peşə təlimatları və təlim;
– No. 6: Fiziki infrastruktur;
– No. 7: Nəqliyyat;
– No. 8: İcma həyatı;

- No. 9: Səhiyyə;
- No. 10: Reabilitasiya;
- No. 11: Sosial müdafiə;
- No. 12: Hüquqi müdafiə;
- No. 13: Zorakılıq və təhqir hallarına qarşı müdafiə;
- No. 14: Tədqiqat və inkişaf;
- No. 15: Məlumatlılığın artırılması.

İctimai və siyasi həyatda (No 1), habelə demokratik proseslərdə iştirak demokratik cəmiyyətlərin inkişaf etdirilməsi və dəstəklənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Əlil insanlar yaşadığı icmaların müqəddaratına təsir etmək imkanına malik olmalıdırlar. Bu baxımdan da, onların səsvermə hüququndan istifadə edə bilməsi, eləcə də siyasi və ictimai həyatda iştirak edə bilməsi xüsusi önəm kəsb edir.

Cəmiyyətə tam inteqrasiya etmələri üçün əlil insanlar, həmçinin, onun mədəni həyatında da (No 2) iştirak edə bilməlidirlər. Əlil insanların mədəni tədbirlərdə və birliklərdə iştirakı təmin edilməli, eyni zamanda, özlərinin, eləcə də yaşadıqları cəmiyyətlərin mənafeyi naminə onların yaradıcı və intellektual potensialının inkişaf etdirilməsi və həyata keçirilməsi istiqamətində zəruri tədbirlər görülməlidir.

Bu baxımdan, informasiya və kommunikasiya (No 3) texnologiyalarından istifadə imkanlarının təmin edilməsi ilkin şərt hesab edilir. İnformasiya və kommunikasiya xidmətlərini təmin edən özəl və dövlət şirkətləri tərəfindən əlil insanların ehtiyaclarının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Əlil şəxslərin cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə informasiya almasını və ötürməsini təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

Təhsil əldə etmək üçün bərabər imkanların yaradılması (No 4) əlil insanların sosial inteqrasiyasının və müstəqilliyinin təmin edilməsi üçün əsas tələb hesab edilir. Təhsil sistemi məktəbəqədər təhsildən tutmuş ixtisas hazırlığına qədər müxtəlif pillələri, o cümlədən, ömür boyu təhsil prinsipini əhatə etməlidir. Əlil insanların yerli icmalar çərçivəsində dəstəklənməsi məqsədilə, müvafiq olan təqdirdə, ümumi təhsil sisteminin xüsusi proqramlar ilə birgə işləməsi üçün şərait yaradılmalıdır. Bu yanaşma, həmçinin, qeyri-əlil şəxslərin insan müxtəlifliyi barədə məlumatlarının və anlayışlarının artmasına təsir edəcəkdir.

Məşğulluq, peşə təlimatları və təlim (No 5) əlil insanların sosial inteqrasiyası və iqtisadi müstəqilliyi baxımından mühüm amillərdir. İş yerlərinin tapılmasında və saxlanılmasında əlillər üçün bərabər imkanların təmin edilməsi məqsədilə qanunvericilik, tədbirlər və xidmətlər tələb olunur. Anti-diskriminasiya və müsbət təsirlərə malik tədbirlərin ümumiləşdirilməsi, eləcə də əlil insanların məşğulluğu ilə bağlı məsələlərin məşğulluq siyasətlərində ön plana çəkilməsi vasitəsilə bərabər məşğulluq imkanlarının yaradılması genişləndirilməlidir.

Çıxış imkanlarına malik və maneələri olmayan fiziki infrastruktur (No 6) bərabər imkanları, müstəqil həyat tərzini, icmada fəal iştirakı və məşğulluq imkanlarını dəstəkləyir. Universal dizayn prinsiplərini tətbiq etməklə əlil insanlar üçün çıxış imkanına malik mühit təmin edilə bilər və yeni maneələrin yaradılmasının qarşısı alına bilər.

Bütün səviyyələrdə çıxış imkanına malik nəqliyyat sisteminin (No 7) yaradılması və tətbiq edilməsi əlil şəxslərin sərnişin nəqliyyatı xidmətlərindən istifadə imkanlarının kifayət qədər yaxşılaşması ilə nəticələnəcəkdir. Bu, müstəqilliyin, əmək bazarında tam iştirakın və icma həyatına fəal cəlb olunmanın əsas şərtidir.

Əlil insanlar mümkün qədər müstəqil tərzdə yaşamalı, eyni zamanda, harada və necə yaşamaları barədə seçim imkanlarına malik olmalıdır. Müstəqil həyat tərzi və sosial inteqrasiya imkanları, ilk növbədə və əsas etibarilə, icmada yaşamaqla təmin edilir. İcmada yaşayış imkanlarının artırılması (No 8) institusional qayğı sistemindən icma-əsaslı mühitə keçidi dəstəkləyən strateji siyasətlər tələb edir (müstəqil həyat üçün tədbirlərdən tutmuş xüsusi yardımçı avadanlıqlarla təchiz edilmiş kick miqyaslı yaşayış yerlərinə qədər). Bu, eyni zamanda, istifadəçinin məqsədlərinə xidmət edən, icma-əsaslı xidmətlər, eləcə də insan-mərkəz tipli yardımçı strukturlar yanaşmasını tələb edir.

Əlil insanlar qeyri-əlil şəxslər kimi müvafiq tibbi xidmətlər (No 9) tələb edirlər və müştərilərin hüquqlarına hörmət edən yüksək keyfiyyətli səhiyyə xidmətlərindən bərabər istifadə imkanlarına malik olmalıdır. Bu baxımdan, tibb işçilərinin sosial əlillik modelinə daha çox diqqət yetirməsi (təlim keçməsi) mühüm əhəmiyyət kəsb edir.

Əlilliyin kəskinləşməsinin qarşısını almaq, onun nəticələrini yüngülləşdirmək və əlil insanların müstəqilliyini artırmaq məqsədilə, çıxış imkanlarına malik və mümkün olan təqdirdə icma-əsaslı müxtəlif çeşidli xidmətləri əhatə edən müfəssəl reabilitasiya proqramları (No 10) tələb olunur.

Sosial müdafiə sisteminin (No 11) təmin etdiyi xidmətlər – o cümlədən, sosial təminat, sosial yardım və dəstək – benefisiarların həyat səviyyəsinin yüksəldilməsinə təsir edə bilər. Əlil insanlar sosial müdafiə sistemlərindən lazımi qaydada faydalana bilməli və bu xidmətlərdən bərabər şəkildə istifadə imkanlarına malik olmalıdır. Mümkün olan təqdirdə, müavinətdən asılılıq sistemindən məşğulluq və müstəqillik sisteminə keçidi stimullaşdıran siyasətlər dəstəklənməlidir.

Əlil insanlar digər ölkə vətəndaşları kimi hüquq sistemindən bərabər istifadə imkanına malik olmalıdırlar. Hüquqi müdafiə (No 12) əlil insanlara qarşı diskriminasiya hallarının aradan qaldırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsini şərtləndirir. Diskriminasiyanın qarşısının alınması və ona qarşı mübarizə aparmaq üçün müvafiq qanunverici və inzibati sistem tələb olunur.

Həmçinin, cəmiyyət insanları zorakılıq və təhqir hallarından müdafiə etmək (No 13) üçün məsuliyyət daşıyır. Siyasətlər əlil insanların bütün zorakılıq və təhqir hallarından qorunması məqsədini daşımalı və bu halların qurbanları üçün müvafiq yardım təmin etməlidir.

Tədqiqat və inkişaf (No 14), statistik məlumatların toplanılması və təhlili, informasiya ilə tam təmin edilmiş və əsaslandırılmış siyasətlərin hazırlanması və həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Etibarlı məlumatlar qarşıya çıxan məsələlərin müəyyən edilməsi baxımından faydalıdır və həll yollarının tapılmasına yardım edir. O, eyni zamanda, ən yaxşı təcrübələrin öyrənilməsi və cəmiyyətdə baş verən dəyişikliklərin izlənilməsi baxımından önəm kəsb edir.

Məlumatlılığın artırılması (No 15) ümumi Tədbirlər Planını dəstəkləyən əsas amildir. Cəmiyyətdə mövcud olan əlil insanların ehtiyaclarının və tələblərinin daha yaxşı başa düşülməsinin dəstəklənməsi məqsədilə, diskriminasiyalı və alçaldıcı davranışlara qarşı mübarizə aparılmalı, onlar qüsurların və əlilliyin nəticələrinə dair hamı tərəfindən əldə edilə bilən və obyektiv informasiya ilə əvəz edilməlidir. Tədbirlər əlil insanlara qarşı mənfi münasibətlərin dəyişdirilməsi məqsədini daşımalı və əlillik məsələsinin bütün dövlət, o cümlədən, media nəşrlərində gündəmə gətirilməsini dəstəkləməlidir.

### *1.4. Kəsişən məsələlər*

Avropanın əlil əhalisi arasında xüsusi maneələr və ya iki dəfə artıq diskriminasiya ilə üzləşən insanlar vardır.

Əlil qadın və qızların, daha çox qayğıya ehtiyacı olan əlillərin, əlil uşaq və gənclərin, əlil yaşlıların, eləcə də miqrant və etnik azlıqlardan olan əlillərin təcrid edilmə riski daha yüksəkdir və onlar, adətən, digər əlil şəxslər ilə müqayisədə cəmiyyətdə daha aşağı səviyyədə iştirak edirlər.

Əlil qadın və qızlar həm gender, həm də əlillik baxımından diskriminasiya səbəbindən cəmiyyətdə iştirak etmək istiqamətində çox zaman çoxsaylı maneələr ilə üzləşirlər. Bütün səviyyələrdə həm əlillik, həm də gender məsələlərinə dair proqram və siyasətlərin hazırlanması zamanı qadın və qızlar ilə bağlı xüsusi vəziyyət nəzərə alınmalıdır.

Əlil insanların daha həssas qruplarından biri mövcud durumunun ciddiliyi və mürəkkəbliyi səbəbindən daha çox qayğıya ehtiyacı olan şəxslərdir. Onların həyat səviyyəsi müvafiq keyfiyyətli xidmətlərin mövcudluğundan və xüsusi, çox vaxt, intensiv yardımdan çox asılıdır. Sözügedən əhali qrupunun xüsusi ehtiyaclarının lazımi səviyyədə qarşılanması üçün əlaqədar təşkilatlar, hökumət qurumları və xidmət təminatçıları arasında planlaşdırma və əlaqələndirmə tələb olunur.

Əlil uşaqlar digər uşaqlar kimi eyni hüquqlardan (Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqlarına dair Konvensiyasında göstərildiyi kimi) və imkanlardan faydalanmalıdır. Gənclər də, həmçinin, cəmiyyətin həssas qruplarından hesab edilir. Onlar, hələ də, həyatın bütün aspektləri üzrə çıxış imkanında kifayət qədər maneələr ilə üzləşirlər. Müxtəlif sahələri əhatə edən və məlumatlar ilə yaxşı təchiz edilmiş siyasətlərin hazırlanması və həyata keçirilməsi məqsədilə əlil uşaq və gənclərin üzləşdikləri xüsusi problemlər daha dərin şəkildə tədqiq edilməlidir.

Əlil şəxslərin, xüsusilə, daha intensiv qayğıya ehtiyac duyan insanların getdikcə qocalması Avropanın müxtəlif əraziləri üzrə cəmiyyətlərdə yeni problemlər doğurur. Bu problemlərin həll edilməsi üçün çoxsaylı siyasət və xidmət sahələri üzrə innovativ yanaşmalar tələb olunur.

Etnik azlıq və miqrant icmalarından olan əlil insanlar diskriminasiya və ya ictimai xidmətlər barədə məlumatın olmaması səbəbindən ciddi əlverişsiz şərait ilə üzləşə bilərlər. Bu qrup insanların qarşılaşa bildiyi problemlərin həll edilməsi məqsədilə onların mədəniyyətini, dilini və xüsusi ehtiyaclarını nəzərə alan müfəssəl yanaşmaya ehtiyac duyulur.

Yuxarıda qeyd edilən xüsusi əlil əhali qruplarının cəmiyyətə inteqrasiyasını təmin etmək üçün müxtəlif sahələri əhatə edən (kəsişən) həll yolu tələb olunur. Siyasətçilər bu qrupların hər birinin üzləşdiyi maneələri və çətinlikləri etiraf etməli və onların aradan qaldırılması istiqamətində həyata keçiriləcək siyasətlərin müxtəlif əsas sahələr üzrə tədbirləri əhatə etməsini, eləcə də hər bir fərdin öz potensialından tam istifadə etməsini təmin etməlidir. Səmərəli kəsişən və inteqrasiyalı siyasətlərin hazırlanmasının dəstəklənməsi məqsədilə, bu Tədbirlər Planının, eləcə də Avropa Şurasının Sosial İnteqrasiya üzrə Yeni Strategiyasının (2004) tələblərindən doğan paralel yanaşmadan istifadə edilməlidir.

### *1.5. İcra və nəzarət*

Tədbirlərin və kəsişən məsələlərin əsasını təşkil edən fundamental prinsiplər arasında universal dizayn, keyfiyyət, təlim və təkmilləşmə prinsipləri Əlillik üzrə Tədbirlər Planının həyata keçrilməsi istiqamətində mühüm elementlərdir. Universal dizayn prinsipinin tətbiq edilməsi fiziki infrastruktura çıxış və məhsullardan istifadə imkanlarının yaxşılaşdırılması baxımından çox böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, bütün siyasətlərin, tədbirlərin və xidmətlərin keyfiyyət baxımından yüksək standartlara malik olması da xüsusi önəm daşıyır. Siyasətlərin hazırlanmasında və xidmətlərin göstərilməsində ümumilik yanaşmasının tətbiqi daha inteqrasiyalı cəmiyyətin təşviq edilməsində mühüm rol oynayır.

Üzv dövlətlər milli səviyyədə əlillik siyasətlərinin və xüsusilə də, hər bir fəaliyyət istiqaməti üzrə onlarla əlaqəsi olan xüsusi tədbirlərin həyata keçirilməsi üçün məsuliyyət daşıyır. Üzv dövlətlər Əlillik üzrə Tədbirlər Planının orijinal formasının təkrarlanmaması məqsədilə hansı sahələrdə artıq uğurların əldə edildiyini və hansı xüsusi tədbirlərin həyata keçirilməli olduğunu müəyyənləşdirmək üçün mövcud siyasətlərin qiymətləndirilməsi və baza prinsiplərinin hazırlanması ilə fəaliyyətə başlamalıdır.

Üzv dövlətlər bu qiymətləndirmələr əsasında milli maliyyə resursları çərçivəsində mövcud siyasətlərinin tədricən tövsiyələrə uyğunlaşdırılması və Əlillik üzrə Tədbirlər Planının əsas prinsiplərinin müəyyənləşdirilməsi məqsədini daşıyan strategiyalar hazırlamalıdır.

Əlillik üzrə Tədbirlər Planının həyata keçirilməsi və qiymətləndirilməsi istiqamətində üzv dövlətlər ümumi yanaşmadan istifadə etməli və müvafiq maraqlı tərəflər, xüsusilə də, əlil insanların qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq yaratmalıdır.

Əlillik üzrə Tədbirlər Planı barədə məlumatlılığın artırılması və onun icrasının təmin edilməsi məqsədilə Avropa Şurasının bütün müvafiq qurumları ilə məsləhətləşmələr aparılmışdır.

Nazirlər Komitəsi nəzarət prosesinin təmin edilməsi üzrə müvafiq forum təşkil edəcək və üzv dövlətlərə xüsusi prioritet məsələlərin dərindən təhlil edilməsinə dair tövsiyələr verə bilər. Əlillik üzrə Tədbirlər Planına səmərəli nəzarətin edilməsi üçün üzv dövlətlər yaradılmış foruma müntəzəm olaraq müvafiq məlumatlar təqdim etməlidir.

Yaradılmış forum Əlillik üzrə Tədbirlər Planının icrası istiqamətində cari vəziyyət barədə Nazirlər Komitəsinin müntəzəm olaraq məlumatlandırılmasını təmin edəcəkdir.

## 2. Giriş

### *2.1. Missiya*

Tədbirlər Planı növbəti 10 il ərzində Avropa Şurasının əlil şəxslər üzrə insan hüquqları, qeyri-diskriminasiya, bərabər imkanlar, tam vətəndaşlıq və iştirak kimi məqsədlərinin Avropanın əlillik siyasəti çərçivəsinə daxil edilməsinə səy göstərir.

Sözügedən Tədbirlər Planının məqsədi hər bir ölkənin xüsusiyyətlərinin nəzərə alınması üçün çevik və uyğunlaşdırıla bilən müfəssəl çərçivənin təmin edilməsindən ibarətdir. Bu sənəd müvafiq planların, proqramların və innovativ strategiyaların hazırlanması, uyğunlaşdırılması, istiqamətinin dəyişdirilməsi və həyata keçirilməsi üzrə müvafiq siyasəti formalaşdıranlara yardım göstərən "yol xəritəsi" rolunu oynamaq niyyətini daşıyır.

Avropa Şurası tövsiyələr, məsləhətlər və ekspert məlumatları formasında bütün üzv ölkələrə dəstək göstərməklə Əlillik üzrə Tədbirlər Planının həyata keçirilməsinə çalışacaqdır.

### *2.2. "Xəstə" modelindən " vətəndaş" modelinə keçid*

Son on il ərzində Avropada böyük siyasi, iqtisadi, sosial və texnoloji dəyişikliklər baş vermişdir. Qloballaşmanın yaratdığı imkanlar və problemlər, informasiya və kommunikasiya texnologiyalarının inkişafı, məşğulluq və işsizliyin, səhiyyə və demoqrafiyanın dəyişən strukturları, eləcə də bazar

iqtisadiyyatına keçid regionda dəyişikliklər yaratmışdır. Bu dəyişikliklərin əksəriyyəti müsbət xarakter daşyaraq, nəticə etibarilə, insanların ümidlərini və gözləntilərini artırmışdır.

Biz artıq, əlil şəxsə qayğıya ehtiyacı olan və cəmiyyətə heç bir xeyir verməyən xəstə insan kimi deyil, cəmiyyətin tam hüquqlu üzvü kimi layiq olduğu yeri tutması üçün mövcud maneələrin aradan qaldırılmasını istəyən fərd kimi baxırıq. Bu tip maneələrə münasibət, sosial, hüquqi və infrastruktur baxımından olan maneələr daxildir. Bu baxımdan biz, əlilliyin köhnə tibbi modelindən sosial və insan hüquqlarına əsaslanan modelinə keçidi daha çox dəstəkləməliyik.

Biz, əsas diqqəti bütün əlil şəxslərin insan hüquqlarına, fundamental azadlıqlarına, şərəf və ləyaqətinə hörmət edən sistemli və inteqrasiyalı yanaşmanın əsasında duran insan amilinə yönəltmişik. Uyğun olaraq, Avropa ölkələrinin əksəriyyətində əlil şəxsin öz həyatına nəzarət etməsini dəstəkləyən fəal siyasətlərin təşviqinə doğru dəyişiklik baş vermişdir. Eyni zamanda, ümumilikdə qeyri-hökumət təşkilatlarının, xüsusilə də, əlil şəxslərin qurumlarının rolu dəyişmişdir. Onlar hökumətin tərəfdaşlarına, əlil şəxslər isə hüquq müdafiəçilərinə, xidmət təminatçılarına və ya ekspert və peşəkar məlumat mənbəyinə çevrilmişdir.

Gələcək texnoloji dəyişikliklərin və inkişafların nəzərə alınması məqsədilə Tədbirlər Planı çevik formada hazırlanmışdır.

Son dövrlər biotexnologiya sahəsində müşahidə edilən inkişaf və ondan potensial istifadə imkanları, hətta bəzi hallarda, yaşamaq hüququnun da sual altına alınması baxımından əlil insanlar arasında narahatlıq yaratmışdır. Bu planda əlil şəxslərin tam sosial inteqrasiyası və iştirakı məsələsi əhatə edildiyi üçün bətndaxili diaqnozlar və əlillik əsasında abort haqqında qanunlarda mövcud olan diskriminasiya halları kimi tibbi məsələləri nəzərə almaq məqsədəuyğun hesab edilməmişdir.

Lakin, qeyd edilən məqamların əhəmiyyəti heç kəsdə şübhə doğurmur və əlil insanların onları təmsil edən təşkilatlar vasitəsilə sözügedən məsələlər üzrə milli və beynəlxalq etik və bio-etik komitələrdə iştirakının təmin edilməsi zəruri hal hesab edilir.

### *2.3. Malaqa Nazirlər Bəyannaməsi*

7-8 may 2003-cü il tarixilərində İspaniyanın Malaqa şəhərində təşkil edilən əlil insanlara dair inteqrasiya siyasətləri üzrə məsul olan nazirlərin İkinci Avropa Konfransı 1991-ci ildə keçirilmiş və Nazirlər Komitəsinin əlil insanlar üzrə sistemli siyasətə dair R (92) 6 saylı Tövsiyəsinin qəbul edilməsilə nəticələnən Nazirlərin Birinci Avropa Konfransının davamı olaraq hazırlanmışdır. 9 aprel 1992-ci il tarixində qəbul edilən sözügedən tövsiyə 10 ildən artıq bir müddət ərzində Avropa Şurasının üzv dövlətlərində əlillik siyasətlərinə təsir göstərmiş və əlil insanların həm milli, həm də beynəlxalq səviyyədə faydalana bildiyi yeni inkluziv siyasətlərin yaradılmasına təkan vermişdir. Lakin, nazirlər qəbul edirlər ki, dəyişən mühit şəraitində əlillik məsələləri üzrə irəliləyişlərə nail olmaq üçün əlavə işlərin görülməsinə ehtiyac vardır.

Konfrans zamanı qəbul edilmiş "Vətəndaş kimi tam iştirakın əldə edilməsinə doğru" adlı Malaqa Nazirlər Bəyannaməsində nazirlər növbəti on il ərzində əsas məqsəd kimi əlil insanların və onların ailələrinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasını götürmüşlər. Yeni strategiya əlilliyin sosial modelini, eləcə də həm əlil insanların, həm də cəmiyyətin yüksək gözləntilərini əks etdirməlidir.

Nazirlər hesab etmişlər ki, bu strategiya yaşından asılı olmayaraq əlil insanlara qarşı bütün diskriminasiya formalarının aradan qaldırılması məqsədilə hazırlanan Tədbirlər Planında əks olunmalıdır. Tədbirlər Planında əlil qadınlara, daha çox qayğıya ehtiyacı olan əlillərə və yaşlı əlillərə

xüsusi diqqət yetirilməli, eləcə də onların insan hüquqlarından, fundamental azadlıqlarından və tam vətəndaşlıq prinsiplərindən istifadə imkanları təmin edilməlidir.

### *2.4. İnsan hüquqları çərçivəsi*

Avropa Şurası və onun üzv dövlətləri anti-diskriminasiya və insan hüquqları çərçivələrində əlil insanların istənilən diskriminasiya və ya təhqir hallarından qorunması, habelə, onlar üçün bərabər imkanların bütün siyasət sahələrində ön plana çəkilməsi istiqamətində fəaliyyətlərini davam etdirəcəkdir.

Tədbirlər Planını hazırlamaqla, üzv dövlətlər əlil insanlara qarşı bərabər münasibətləri və onların insan hüquqlarını dəstəkləyən mövcud hüquqi razılaşmaların, alətlərin, standartların və siyasətlərin təsir gücünü təsdiq etmək istəyir. Nazirlər Komitəsinin R (92)6 saylı tövsiyəsi Avropa səviyyəsində möhkəm baza yaratmışdır. Avropa İttifaqının qanunları və proqramları bu özülü daha möhkəmləndirmiş, Avropa Komissiyasının Tədbirlər Planı isə, bundan sonra Avropa institutları tərəfindən hazırlanacaq əlillik siyasətlərinin modelini müəyyənləşdirəcəkdir. Avropa Şurasının Sosial İnteqrasiya üzrə Yeni Strategiyası (2004) cəmiyyətdə həssas və təcrid olmaq riski ilə daha çox üzləşən fərdlərin və qrupların hüquqlarının həqiqətə çevrilməsi istiqamətində xüsusi fəaliyyəti əhatə edir.

Avropanın mövcud alətləri ilə yanaşı, BMT-nin Əlil İnsanlar üçün Bərabər İmkanların Təmin Edilməsi üzrə Standart Qaydaları, BMT-nin insan hüquqları ilə bağlı əsas razılaşmaları və BMT-nin əlil insanların hüquqlarına dair beynəlxalq konvensiyası layihəsində göstərilən məqamlar da nəzərə alınmışdır.

### *2.5. Strateji məqsədlər*

Tədbirlər Planının əsas məqsədi, nəticə etibarilə, əlilllik məsələlərinin bütün siyasət sahələrində ön plana gətirilməsi ilə əlil insanların cəmiyyətdə tam şəkildə iştirakının təmin edilməsindən ibarətdir.

Plan hər bir ölkə üçün səciyyəvi xüsusiyyətlərin nəzərə alınması üçün kifayət qədər çevik olan müfəssəl tövsiyələrdən ibarət xüsusi çərçivə təmin edir. O, bu baxımdan, üzv dövlətlərin coğrafi, iqtisadi, mədəni və sosial müxtəlifliyini lazımi qaydada nəzərə alır və bir sıra ölkələrdə keçid prosesinin artıq başlandığını təsdiq edir. Bu sənəd əsas diqqəti prioritet məsələlərə yönəldən müvafiq strategiyaların hazırlanması və həyata keçirilməsi üzrə siyasətçilərə yardım göstərən praktik alət, "yol xəritəsi" rolunu oynamaq niyyətini daşıyır.

O, əlil vətəndaşların inteqrasiyası üçün ilk milli Tədbirlər Planının yaradılmasına ehtiyac duyan ölkələrə yardım göstərəcək, həmçinin, artıq bu tip plan və siyasətlərə malik dövlətlərə isə, onların daha da inkişaf etdirilməsi istiqamətində dəstək verəcəkdir.

Plan üzv dövlətlərə diskriminasiyanı qadağan edən fəal siyasətlərin dəstəklənməsində köməklik göstərəcək, bərabər imkanlar hüququnu təbliğ edəcək və onlar pozulduqda isə səmərəli bərpa mexanizmini təmin edəcəkdir.

O, keyfiyyətli və innovativ xidmətlər təmin etmək və artıq mövcud olan tədbirləri möhkəmləndirmək vasitəsilə əlil insanların ehtiyaclarının ödənilməsi istiqamətində üzv dövlətləri həvəsləndirir.

O, özəl şirkətlər, qeyri-hökumət təşkilatları və digər beynəlxalq qurumlar üçün faydalı stimul mənbəyi rolunu oynayır.

Son olaraq, ən mühüm məqam isə odur ki, Tədbirlər Planı milli siyasətlərin hazırlanmasından tutmuş daha fərdi məsələlərə qədər əlil şəxslərin həyatına təsir edən qərar qəbulu prosesində bu şəxslər və onların nümayəndələri ilə maraqlı tərəf qismində məsləhətləşmələrin aparılması kimi əhəmiyyətli konsepsiyanı təbliğ edir.

Uğurların müəyyən edilməsi və ən yaxşı təcrübələrin bölüşdürülməsi məqsədilə Tədbirlər Planının müntəzəm monitorinqi aparılacaqdır. Bu məqsədlə, yəni, milli səviyyədə icra prosesinin monitorinqi və qiymətləndirilməsi üçün isə səmərəli və praktik mexanizmlər tələb olunacaqdır.

### *2.6. Struktur və məzmun*

Tədbirlər Planı geniş miqyasa malikdir və əlil insanların həyatının bütün əsas sahələrini (məsələn, mənzil, təhsil, məşğulluq, hərəkət və məlumatlandırma) əhatə edir. Qeyd edilən əsas sahələr Tədbirlər Planının əsasını təşkil edən fəaliyyət istiqamətlərində lazımi səviyyədə əks olunmuşdur.

Plan, həmçinin, əlil qadın və qızlar, əlil uşaq və gənclər, əlil yaşlılar, daha çox qayğıya ehtiyacı olan əlillər, eləcə də miqrant və etnik azlıqlardan olan əlillər kimi kəsişən məsələləri də özündə birləşdirir.

Tədbirlər Planında Avropada və beynəlxalq səviyyədə mövcud olan mexanizmlərə, müqavilələrə və planlara, xüsusilə də, əlil insanlara dair BMT-nin Konvensiya layihəsində əks olunan məqamlara lazımi diqqət yetirilmişdir.

Tədbirlər Planının əsas məğzini təşkil edən fundamental prinsiplərə əlil insanların diskriminasiya edilməməsi, onlar üçün bərabər imkanların, müstəqilliyin və tam iştirak hüququnun təmin edilməsi daxildir.

Tədbirlər Planının əsas elementləri fundamental prinsipləri, əsas fəaliyyət istiqamətlərini, kəsişən məsələləri, icra və nəzarət mexanizmlərini, habelə, mərhələli icra prosesini əhatə edir. Sözügedən sənəd müvafiq qaydada tərtib edilmişdir.

Tədbirlər Planında əlilliyin təyinetmə meyarları əks olunmamışdır. Komitə belə qərara gəlmişdir ki, bu üzv dövlətlərə və onların milli siyasətlərinə aid olan bir məsələdir.

Uyğun olaraq, Tədbirlər Planından əlilliyin qarşısının alınması mövzusuna da toxunulmur. Əlillik məsələsi fərdlərə, onların ailələrinə və ümumilikdə cəmiyyətə təsir etdiyindən, bu mövzu əlil insanlar, əlil olmayan şəxslər və hökumətlər üçün mühüm əhəmiyyət kəsb edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Funksiya, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifatına (ICF)[1] uyğun olaraq, Tədbirlər Planı, ümumilikdə, fəaliyyətin və iştirakın məhdudlaşdırılması hallarının qarşısının alınması istiqamətində tədbirləri əhatə edir. Bununla da Tədbirlər Planı ICF-ni qəbul edir və üzv dövlətlərin ondan standartlaşdırma çərçivəsi kimi istifadə etməsini təşviq edəcəkdir.

Komitə hesab edir ki, tibbi müalicə sahəsində hazırki inkişaf, əlilliyin erkən dövrlərdə müəyyən edilməsi istiqamətində nailiyyətlər və ictimai səhiyyə sahəsində irəliləyişlər kimi məsələlər Avropa Şurası çərçivəsində müvafiq komitələr tərəfindən əhatə edilməlidir.

Tədbirlər Planı sağlam həyat tərzinin, təhlükəsiz mühitin, müvafiq səhiyyə və yardımçı sistemlərin fəal surətdə dəstəklənməsi vasitəsilə əlilliyin təsirinin minimuma endirilməsinin təmin edilməsi istiqamətində cəmiyyətin bütün vətəndaşlar qarşısında məsuliyyət daşıması prinsipini bir daha təsdiq edir. Bu məqamlara müxtəlif fəaliyyət istiqamətində, xüsusilə də, səhiyyə və reabilitasiya məsələləri ilə bağlı hissələrdə toxunulur.

---

[1] Cenevrə, 2001.

### 2.7. *Fundamental prinsiplər*

Tədbirlər Planının əsas məğzini təşkil edən fundamental prinsiplər aşağıdakılardır:

- qeyri-diskriminasiya;
- bərabər imkanlar;
- bütün əlil insanların cəmiyyətdə tam iştirakı;
- fərqliliyə hörmət və əlilliyin insan müxtəlifliyinin bir hissəsi kimi qəbul edilməsi;
- şərəf və ləyaqət, fərdi müstəqillik, o cümlədən azad seçim imkanı;
- qadınlar və kişilər arasında bərabərlik;
- təmsilçi təşkilatlar vasitəsilə əlil şəxslərin həm fərdi, həm də cəmiyyət səviyyəsində onların həyatı ilə bağlı verilən qərarların qəbulu prosesində iştirakı.

### 2.8. *Prosedur*

Tədbirlər Planının hazırlanması prosesinə Əlil İnsanların Reabilitasiyası və İnteqrasiyası Komitəsinin 2003-cü ilin oktyabr ayında keçirilmiş 26-cı yığıncağında (Natamam Razılıaşma) (CD-P-RR) başlanılmışdır. Bu prosesin dəstəklənməsi məqsədilə Tədbirlər Planının hazırlanması üçün CD-P-RR tərəfindən səlahiyyət verilən və xüsusi layihə qrupu tərəfindən dəstəklənən işçi qrupu yaradılmışdır.

Tədbirlər Planı əlil insanların qeyri-hökumət təşkilatlarının ekspert kimi rolunu təvfiq edir və onlara siyasətlərin hazırlanmasında səlahiyyətli tərəfdaş kimi baxır. Eyni zamanda, əlil insanların təşkilatlarını təmsil edən Avropa Əlillik Forumu Avropa Şurasının Əlillik üzrə Tədbirlər Planının hazırlanmasında mühüm rol oynamışdır.

Əlillik üzrə Tədbirlər Planı barədə məlumatlılığın artırılması və onun icrasının təmin edilməsi məqsədilə Avropa Şurasının bütün müvafiq qurumları ilə məsləhətləşmələr aparılmışdır.

## 3. Əsas fəaliyyət istiqamətləri

Tədbirlər Planı çoxsaylı siyasət sahələri üzrə xüsusi tədbirlər müəyyən edir ki, onlar da, ümumilikdə əlil insanlara dair strategiya və milli siyasətlərin hazırlanması və inkişaf etdirilməsi istiqamətində müfəssəl çərçivə rolunu oynaya bilər və bu şəxslərin cəmiyyətdə tam iştirakının dəstəklənməsi məqsədilə siyasətləri təkmilləşdirə bilər.

Fəaliyyət istiqamətləri Əlil İnsanlara dair "Vətəndaş kimi tam iştirakın əldə edilməsinə doğru" adlı Nazirlər Bəyannaməsinə (2003-cü ilin may ayında İspaniyanın Malaqa şəhərində təşkil edilmiş əlil insanlar üçün inteqrasiya siyasətləri üzrə məsul olan Nazirlərin İkinci Avropa Konfrasında qəbul edilmişdir), əlil insanlar üçün sistemli siyasətə dair Avropa Şurasının R (92) 9 saylı tövsiyəsinə və ümumilikdə, Avropadakı mövcud vəziyyətə əsaslanır.

Hər bir fəaliyyət istiqaməti aşağıdakı başlıqlar altında üzv dövlətlər tərəfindən həyata keçiriləcək əsas məqsədlər və xüsusi tədbirlər müəyyən edir:

- No. 1: Siyasi və ictimai həyatda iştirak;
- No. 2: Mədəni həyatda iştirak;
- No. 3: İnformasiya və kommunikasiya;
- No. 4: Təhsil;
- No. 5: Məşğulluq, peşə təlimatları və təlim;
- No. 6: Fiziki infrastruktur;
- No. 7: Nəqliyyat;

– No. 8: İcma həyatı;
– No. 9: Səhiyyə;
– No. 10: Reabilitasiya;
– No. 11: Sosial müdafiə;
– No. 12: Hüquqi müdafiə;
– No. 13: Zorakılıq və təhqir hallarına qarşı müdafiə;
– No. 14: Tədqiqat və inkişaf;
– No. 15: Məlumatlılığın artırılması.

### *3.1. Fəaliyyət istiqaməti No.1: Siyasi və ictimai həyatda iştirak*

#### *3.1.1. Giriş*

İctimai və siyasi həyatda , habelə demokratik proseslərdə iştirak demokratik cəmiyyətlərin inkişaf etdirilməsi və dəstəklənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Cəmiyyət vətəndaşlarının fərqliliyini əks etdirməli, eləcə də onların müxtəlif bilik və təcrübəsindən faydalanmalıdır. Bu baxımdan da, əlil şəxslərin səsvermə hüququndan istifadə edə bilməsi və siyasi və ictimai həyatda iştirak edə bilməsi xüsusi önəm kəsb edir.

Əlil insanların yerli, regional, milli və beynəlxalq səviyyələrdə siyasi həyatda iştirak edə bilməsini təmin edən və dəstəkləyən mühitin yaradılması istiqamətində səylər göstərilməlidir. Buna nail olmaq üçün isə, hər kəsin öz siyasi hüququndan faydalana bildiyi şərait yaratmaq lazımdır.

Qeyd etmək lazımdır ki, əlil qadınlar və gənclər təmsilçi funksiyasına malik şəxslərin az hissəsini təşkil edirlər. Onların iştiraka həvəsləndirilməsi və təmsilçi qruplara daxil edilməsi mühüm əhəmiyyət kəsb edir.

#### *3.1.2. Məqsədlər*

i. Əlil şəxslərin siyasi partiyalarda və vətəndaş cəmiyyətində bərabər iştirak hüququnu dəstəkləyən mühiti fəal surətdə təşviq etmək;

ii. cəmiyyətin fərqli təbiətini tam şəkildə əks etdirmək məqsədilə əlil insanların yerli, regional, milli və beynəlxalq səviyyələrdə siyasi həyatda iştirakını gücləndirmək;

iii. qadın və gənc əlillərin, habelə, daha çox qayğıya ehtiyacı olan əlill şəxslərin bütün səviyyələrdə siyasi arenada iştirakını dəstəkləmək;

iv. əlillərə dair siyasətlərin hazırlanmasında bu şəxslər və onların təmsilçi təşkilatları ilə məsləhətləşmələrin aparılmasını və səlahiyyətə malik olmasını təmin etmək.

#### *3.1.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Demokratik hüquqlarını həyata keçirə bilməsi məqsədilə, əlil insanlar üçün münasib və çıxış imkanına malik səsvermə prosedurları və obyektləri təmin etmək, eləcə də, lazım olan təqdirdə, səsvermə zamanı onlara yardım göstərmək;

ii. əlil insanların gizli səsvermə hüququnu qorumaq üçün, lazım olan təqdirdə, onların xahişi əsasında səsvermə zamanı seçdikləri şəxsin yardımından istifadə etməsinə icazə vermək;

iii. əlillik səbəbindən heç bir şəxsin seçmək və ya seçilmək hüququndan məhrum edilməməsini təmin etmək;

iv. seçki məlumatlarının bütün zəruri alternativ formatlarda hazırlanmasını və asan qavranılmasını bilməsini təmin etmək;

v. çıxış imkanına malik məlumatların və ictimai görüşlərin təmin edilməsi istiqamətində siyasi partiyaları və digər vətəndaş cəmiyyəti təşkilatlarını həvəsləndirmək;

vi. bütün səviyyələrdə siyasi proseslərə töhfə vermək və təsir etmək məqsədilə, yerli, regional, milli və beynəlxalq miqyasda birgə təmsilçi əlil təşkilatların yaradılması istiqamətində əlil şəxsləri, xüsusilə də, qadın və gəncləri dəstəkləmək;

vii. demokratik qərar qəbulu prosesində əlil şəxslər və onların təşkilatları ilə digər tərəflərlə bərabər şəkildə məsləhətləşmələri təşviq etmək;

viii. vətəndaşların yerli ictimai həyatda iştirakına dair Nazirlər Komitəsinin üzv dövlətlərə Rec(2001)19 saylı tövsiyəsində, kişi və qadınların siyasi və ictimai qərar qəbulu prosesində bərabər iştirakına dair Nazirlər Komitəsinin üzv dövlətlər Rec(2003)3 saylı tövsiyəsində, elektron səsvermənin hüquqi, praktik və texniki standartlarına dair Rec(2004)11 saylı tövsiyədə və elektron hökumətə dair Rec(2004)15 saylı tövsiyədə göstərilən müvafiq müddəaları həyata keçirmək.

### *3.2. Fəaliyyət istiqaməti No. 2: Mədəni həyatda iştirak*

#### *3.2.1. Giriş*

Əlil şəxslərin fərd kimi cəmiyyətə tam inteqrasiya etməsi hüququ onların yaşadıqları cəmiyyətin mədəni həyatında iştirak edə bilməsindən asılıdır. Əgər əlil insanlar müstəqil qalmaq və ya olmaq istəyirsə, o zaman, əlil və ya sağlam olmasından asılı olmayaraq, cəmiyyətin digər üzvləri ilə ünsiyyət qurmaqla mümkün qədər tam həyata malik olmalıdırlar. Onlar mədəniyyət, istirahət, idman və turizm sahələrində iştirak etmək hüququna malikdirlər.

Avropa Şurası və ona üzv dövlətlər mədəniyyət siyasətlərinin hazırlanması və həyata keçirilməsi zamanı əlil şəxslərin hüquqlarının nəzərə alınması barədə öhdəlik götürürlər. Mədəni və sosial həyata çıxış və iştirak vasitəsilə əlil şəxslərin imkanlarının və həyat səviyyəsinin dəyişdirilməsi istiqamətində əlaqələndirilmiş tədbirlərə ehtiyac vardır.

Bu məqsədə nail olmağın asan yolu yoxdur. Müxtəlif vasitələrdən istifadə edilə bilsə də, nəticə etibarilə, xüsusi qanunların qəbul edilməsi tələb oluna bilər. Bu xüsusilə, köhnə və ya tarixi binalara, eləcə də, kiçik özəl biznes obyektlərinə çıxış imkanının yaradılması baxımından "münasib uyğunlaşdırma" konsepsiyasını əks etdirməlidir. O, həmçinin, cəmiyyətin fərqliliyinin kütləvi informasiya vasitələrində geniş şəkildə işıqlandırılmasını tələb edəcəkdir.

#### *3.2.2. Məqsədlər*

i. Əlil şəxslər üçün yerli, regional və milli mədəni həyatda iştirak imkanlarının təmin edilməsi istiqamətində lazımi tədbirlər görmək;

ii. əlil şəxslərin həm müşahidəçi, həm də iştirakçı qismində mədəni, istirahət, idman və sosail tədbirlərdə iştirakını təmin etmək;

iii. özlərinin və yaşadıqları cəmiyyətin mənafeyi naminə əlil şəxslərin yaradıcı, atletik, mənəvi və intellektual potensialını inkişaf etdirmək və ondan istifadə etmək məqsədilə tədbirlər görmək;

*3.2.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Mümkün olan təqdirdə elektron texnologiyadan və sadə, asan başa düşülə bilən sözlərdən istifadə etməklə əlil insanların ədəbiyyatlardan və digər mədəni informasiya materiallarından istifadə imkanlarının yaradılması istiqamətində yerli, regional, milli və beynəlxalq səviyyədə institutları və müvafiq qurumları dəstəkləmək;

ii. əlil insanların mədəni, istirahət, idman, mənəvi və intellektual tədbirlərə cəlb edilməsi istiqamətində ictimai institutları məcbur etmək, özəl təsisatları, müvafiq qurumları və xidmət təminatçılarını isə həvəsləndirmək;

iii. əlil şəxslərin televiziya verilişlərinə, filmlərə, teatr tamaşalarına və digər incəsənət tədbirlərinə çıxış imkanının təmin edilməsi (buraya, titrlər, kadraltı yazılar, audio təsvirlər və əl işarələri daxil ola bilər) istiqamətində televiziya və digər müvafiq qurumları həvəsləndirmək;

iv. "kamera/mikrofon qarşısında və arxasında" çalışan əlil işçilərin sayının artırılması üçün milli televiziya yayım və digər əlaqədar qurumlardan Tədbirlər Planının hazırlanmasını tələb etmək;

v. işçi heyəti üçün əlilliyə dair məlumatlandırma təlimlərinin təşkil edilməsi istiqamətində mədəniyyət, idman, istirahət və turizm sahəsində çalışan təsisatları və əlaqədar qurumları dəstəkləmək;

vi. məsələn, istənilən zəruri yolla öz obyektlərindən və xidmətlərindən hamı üçün istifadə imkanlarının yaradılması istiqamtində qurumların həvəsləndirilməsi vasitəsilə, əlil şəxslər üçün mədəni, idman, turizm və istirahət tədbirlərinə çıxış imkanlarını təmin etmək;

vii. müvafiq tədbirlər görmək:

– beynəlxalq hüquq normaları çərçivəsində, intellektual mülkiyyət hüququnu qoruyan qanunların əlil şəxslərin mədəni materiallardan istifadə imkanları üçün əsassız və ya diskriminasiyalı maneələr yaratmamasını təmin etmək;
– əlil şəxslərin incəsənət işçisi statusu ala bilməsini və özlərinin incəsənət mülkiyyətindən faydalana bilməsini təmin etmək;

viii. əlil və ya sağlam insanlar üçün nəzərdə tutulmasından asılı olmayaraq, əlil şəxslərin tədbirlərdə iştirakını dəstəkləmək;

ix. idman və mədəni tədbirlərin sosial potensialın artırılması istiqamətində oynadığı rolu nəzərə alaraq, onların əlil uşaqlar üçün təhsil proqramlarının ayrılmaz tərkib hissəsi olmasını təmin etmək;

### ***3.3. Fəaliyyət istiqaməti No. 3: İnformasiya və kommunikasiya***

*3.3.1. Giriş*

İnformasiya və kommunikasiyaya çıxış imkanı cəmiyyətdə iştirak etməyin əsas amilidir. Əlil insanlar öz hüquqlarından fəal şəkildə faydalanmaq, cəmiyyətdə iştirak etmək və öz həyatları barədə seçim etmək istəyirlərsə, o zaman, onların münasib kommunikasiya sistemləri vasitəsilə informasiya əldə edə bilməsi mühüm əhəmiyyət kəsb edir. Lakin, təəssüflər olsun ki, əksər əlil insanlar üçün informasiya və kommunikasiya kifayət qədər əlçatmaz olaraq qalır.

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində baş verən inkişaf vətəndaşların bir-birləri ilə ünsiyyət yaratması, biznes fəaliyyəti ilə məşğul olması, xidmətlərdən və ümumiyyətlə, informasiya və kommunikasiyadan istifadə etməsi yolunu dəyişmişdir. Texnoloji nailiyyətlərə internet, elektron kommunikasiya vasitələri, videofonlar və s. daxildir. Bütün vətəndaşların bu cür texnologiyalardan faydalanması və heç bir qrupun, xüsusilə də əlil insanların ondan kənar qalmaması mühüm əhəmiyyət kəsb edir.

İctimai qurumlar əlil insanların fərqli ehtiyaclarına uyğun gələn müxtəlif formatlar vasitəsilə informasiyaya çıxış imkanlarının təmin edilməsinə dair xüsusi öhdəliyə malikdirlər. Bu qurumlar, həmçinin, əlil şəxslərə xidmətin göstərilməsi üzrə özəl sektor üçün ən yaxşı nümunə olmalı və eyni zamanda, onların da bu təcrübədən istifadə etməsi dəstəklənməlidir.

Əlil insanların kommunikasiya sistemlərinə də çıxış imkanı olmalıdır. Artıq, bu cür sistemlərin istifadə edilə bilən nümunələri vardır: məsələn, telefon-rele sistemləri və ya video kommunikasiya sistemləri.

Yeni kommunikasiya və informasiya sistemlərinin standartlarının və dizaynının hazırlanması zamanı əlil insanlar ilə məsləhətləşmələr aparılmalıdır.

Əgər biz, həqiqətən də inkluziv cəmiyyət yaratmaq istəyiriksə, əlil şəxslər də digər insanlar kimi informasiya və kommunikasiya sistemlərindən istifadə edə bilməlidirlər.

*3.3.2. Məqsədlər*

i. Əlil insanların cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə informasiya axtara, qəbul edə və ötürə bilməsini təmin etmək üçün zəruri tədbirlər görmək;

ii. həyatın bütün sahələrində əlil şəxslərin müstəqilliyinin və insanlar ilə ünsiyyət səviyyəsinin artırılması məqsədilə yeni texnologiyaların potensialından səmərəli şəkildə istifadə etmək;

*3.3.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Müxtəlif əlillik səbəblərinin tələblərini nəzərə alaraq (məsələn, Breyl sistemi (korlar üçün), audio-maqnitofon və ya asan-oxuna-bilən versiyalar), çıxış imkanına malik formatlar və texnologiyalar vasitəsilə əlil insanları rəsmi məlumatlarla təmin etməyə çalışmaq;

ii. əlil insanların informasiya və kommunikasiya texnologiyalarından istifadə etməsini dəstəkləmək üçün təlimlər və digər müvafiq tədbirlər həyata keçirmək;

iii. mövcud çıxış standartlarına uyğun şəkildə bütün elektron-tədris materiallarının hamı tərəfindən istifadə edilə bilməsini təmin etmək;

iv. əlil insanların işarə ilə danışıq dilinə, Breyl sisteminə və alternativ kommunikasiya növlərinə və vasitələrinə (o cümlədən, təbliğat xidmətləri) ehtiyac duya bilməsini qəbul etmək və rəsmi

ünsiyyətdə bunları mümkün qədər daha çox tətbiq etmək. Xahiş əsasında, görüşlər və konfranslar zamanı tədbirin məzmununu sadə sözlərlə ümumiləşdirən şəxsin xidmətindən istifadə edilə bilər;

v. yeni texnologiyalar (məsələn, mətn kommunikasiyası) vasitəsilə əlil şəxslər üçün kommunikasiya sistemlərinə çıxış imkanlarını daha da artırmaq;

vi. çıxış imkanları üzrə mövcud beynəlxalq təlimatlara uyğun şəkildə əlil insanların hökumət orqanlarının və digər ictimai qurumların informasiya və kommunikasiyasından, o cümlədən internet saytlarından istifadə etməsi üçün imkanlar yaratmaq;

vii. informasiya və kommunikasiya sistemlərinə çıxış imkanının yaradılması istiqamətində bütün özəl qurumları, xüsusilə də ictimai fondlar alan təşkilatları dəstəkləmək;

viii. informasiya və kommunikasiya sistemi sahəsində münasib yardımçı texnologiyaların hazırlanması, istehsalı və paylanmasını stimullaşdırmaq;

ix. bütün yeni informasiya və kommunikasiya texnologiyalarının hazırlanması zamanı universal dizayn prinsiplərini təşviq etmək;

x. ResAP(2001)3 saylı "Yeni inkluziv texnologiyalar vasitəsilə əlil insanların tam vətəndaşlıq hüququna doğru" adlı Qətnaməni həyata keçirmək.

### *3.4. Fəaliyyət istiqaməti No. 4:Təhsil*

#### *3.4.1. Giriş*

Təhsil bütün insanların, o cümlədən əlil şəxslərin sosial inteqrasiyasının və müstəqilliyinin təmin edilməsində mühüm amildir. Ailə, dostlar və s. tərəfindən göstərilən sosial təsir də müəyyən effektə malikdir, lakin, bu fəaliyyət istiqamətinin məqsədinə uyğun olaraq, təhsil həyatın bütün sahələrini, o cümlədən, məktəbəqədər, ibtidai, orta, ali təhsil pillələrini, peşə hazırlığını, eləcə də ömür boyu təhsil sistemini əhatə edir. Əlil insanların ümumi təhsil sistemində iştirakının təmin edilməsi təkcə onlar üçün deyil, həmçinin, insan varlığının fərqliliyini dərk etməsi baxımından qeyri-əlil şəxslər üçün də əhəmiyyətlidir. Əksər təhsil sistemləri əlil şəxslər üçün ümumi təhsil sisteminə, lazım olan təqdirdə isə, xüsusi təhsil strukturlarına çıxış imkanı yaradırlar. Yerli icmalarda yaşayan əlil şəxslərin dəstəklənməsi üçün ümumi və xüsusi təhsil strukturlarının birgə fəaliyyəti dəstəklənməlidir. Lakin, bu tam inteqrasiyanın məqsədinə uyğun olmalıdır.

#### *3.4.2. Məqsədlər*

i. Təbiətindən və əlillik səviyyəsindən asılı olmayaraq, bütün insanlar üçün bərabər şəkildə təhsil almaq və tam olaraq öz şəxsiyyətini, istedadını, yaradıclıq, intellektual və fiziki potensalını reallaşdırmaq imkanı yaratmaq;

ii. əlil insanların ehtiyaclarını nəzərə alan təhsil sisteminin yaradılması istiqamətində müvafiq səlahiyyətli qurumları dəstəkləməklə, onların ümumi təhsil sistemindən istifadə imkanlarını təmin etmək;

iii. istənilən yaşda olan əlil şəxslər üçün ömür boyu təhsil sistemini dəstəkləmək və təşviq etmək, eləcə də təhsilin müxtəlif pillələri arasında, habelə təhsil sistemindən əmək bazarına səmərəli və effektiv keçidi təmin etmək;

iv. təhsilin bütün pillələrində, o cümlədən, erkən yaşda olan bütün uşaqlar arasında əlil insanların hüquqlarına hörmət hissini aşılamaq.

*3.4.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Erkən dövrlərdən başlayaraq böyük yaşlarına kimi təhsilin bütün pillələrinə çıxış imkanı baxımından əlil uşaqlara, gənclərə və böyüklərə qarşı diskriminasiya hallarının aradan qaldırılması məqsədilə, qanunvericilik bazasını, siyasətləri və planlaşdırmanı dəstəkləmək. Bu zaman, lazım olan təqdirdə əlil istifadəçilər, valideynlər, himayədarlar, könüllü təşkilatlar və digər müvafiq peşəkar qurumlarla məsləhətləşmələr aparmaq;

ii. təcrübə mübadiləsini, habelə, əlil uşaqların, gənclərin və böyüklərin cəmiyyətə daha yaxşı inteqrasiyasını dəstəkləyən qarışıq təhsil sisteminin, o cümlədən, ümumi və xüsusi təhsil proqramlarının hazırlanmasını təşviq etmək və bu istiqamətdə yardım göstərmək;

iii. təhsil proqramının və planlaşdırma prosesinin məlumatla təmin edilməsi üçün əlil uşaqların, gənclərin və böyüklərin xüsusi təhsil ehtiyaclarını erkən dövrlərdə lazımı səviyyədə qiymətləndirmək;

iv. fərdi təhsil planlarının həyata keçirilməsini monitorinq etmək, eləcə də, bütün təhsil pillələrində və məşğulluq sahəsində əlaqələndirilmiş yanaşmanı dəstəkləmək;

v. əlil insanların, o cümlədən uşaqların səmərəli təhsil almasını dəstəkləmək məqsədilə, onların ümumi təhsil sistemi çərçivəsində lazımi yardım almasını təmin etmək. Bəzi istisna hallarda, əlil şəxslərin peşəkar səviyyədə qiymətləndirilmiş xüsusi təhsil ehtiyacları ümumi tədris sistemi çərçivəsində ödənilmədikdə, üzv dövlətlər tam inteqrasiya prinsiplərinə uyğun şəkildə səmərəli alternativ yardım tədbirləri təmin edəcəkdir. Bütün xüsusi və ümumi təhsil proqramları qarışıq tədris sisteminə keçidi dəstəkləməli, habelə, eyni məqsəd və standartları əks etdirməlidir;

vi. əlillik barədə məlumatların artırılması və müvafiq tədris metodlarının tətbiq edilməsi vasitəsilə, lazım olan təqdirdə, əlil şagird və tələbələrin dəstəklənməsi məqsədilə bütün təhsil pillələri üzrə çalışan mütəxəssislər və müəllimlər üçün ilkin təlimlərın və ixtisasartırma kurslarının hazırlanmasına yardım göstərmək;

vii. əlil şəxslər üçün ümumi təhsil sistemi çərçivəsində tətbiq edilən bütün tədris materiallarından və metodlarından istifadə imkanını təmin etmək;

viii. məktəblərin tədris proqramına əlil şəxslərin bütün ölkə vətəndaşları kimi bərabər hüquqlara malik olmasını təşviq edən fənn əlavə etmək;

ix. əlillik barədə məlumatlılığın artırılmasının ümumi məktəb və institut proqramlarının əsas tərkib hissəsi olmasını təmin etmək;

x. əlil şəxslərin təhsil və təlim obyektlərinə çıxış imkanının təmin edilməsi istiqamətində tədbirlər görmək, o cümlədən, onların ehtiyaclarının ödənilməsi üçün fərdi yardımlar göstərmək və məqsədyönlü uyğunlaşdırmalar (avadanlıqlar da daxil olmaqla) aparmaq;

xi. valideynləri əlil uşaqlar üçün fərdi təhsil proqramlarının hazırlanması prosesinə fəal surətdə cəlb etmək;

xii. rəsmi təhsil sistemində əldə edilə bilməyən zəruri biliklərə yiyələnməsi üçün əlil gənclərin qeyri-rəsmi təhsil sistemindən istifadə imkanlarını təmin etmək;

xiii. lazım olan təqdirdə, Avropa Sosial Xartiyasının (Yenidən Baxılmış) (ETS No 163), xüsusilə də, onun 15-ci maddəsinin imzalanmasını və ratifikasiya edilməsini nəzərdən keçirmək.

### *3.5. Fəaliyyət istiqaməti No. 5:Məşğulluq, peşə təlimatları və təlim*

#### *3.5.1. Giriş*

Məşğulluq əmək qabiliyyətli yaşda olan bütün vətəndaşların sosial inteqrasiyası və iqtisadi müstəqilliyi baxımından mühüm elementdir. Qeyri-əlil insanlarla müqayisədə əlil şəxslərin məşğulluq və fəaliyyət səviyyəsi çox aşağıdır. Əmək bazarında iştirak etmək istiqamətində qarşıya çıxan bütün maneələrin aradan qaldırılması üçün fəaliyyət səviyyəsinin artırılması məqsədini daşıyan siyasətlər müxtəlif əlil şəxslərin məşğulluq potensialına uyğun olaraq müfəssəl olmalıdır. Əlil şəxslərin məşğulluq potensialının artırılması təkcə onlar üçün deyil, eyni zamanda, işəgötürən təşkilatlar, eləcə də ümumilikdə bütövlükdə cəmiyyət üçün faydalıdır.

Peşə təlimatları və yardımı daha münasib iş yerlərinin müəyyən edilməsi və təlim ehtiyaclarının və ya gələcək iş yerlərinin izlənməsi baxımından insanlara köməkliyin göstərilməsində mühüm rol oynayır. Əlil şəxslərin öz potensialından istifadə edə bilməsi məqsədilə, onlar üçün qiymətləndirmə, peşə təlimatı və təlim sisteminə çıxış imkanının yaradılması çox böyük əhəmiyyət kəsb edir.

Bu fəaliyyət istiqamətinin əsas məqsədə əlil şəxslərin əmək bazarında fəal iştirakı üçün bazanın hazırlanmasından, peşə seçimlərinin yaradılmasından və real seçimlərin təmin edilməsi məqsədilə müxtəlif strukturlar çərçivəsində təməlin qoyulmasından və yardımın göstərilməsindən ibarətdir. Bütün tədbirlər həm dövlət, həm də özəl sektora aid edilir.

Açıq məşğulluq nümunəsinin tərkib hissəsi kimi sosial müəssisələr (məsələn, sosial firmalar, sosial kooperativlər) və ya əlillər üçün emalatxanalar əlil şəxslərin məşğulluğunun artırılmasına öz töhfəsini verə bilər.

#### *3.5.2. Məqsədlər*

i. Əlil insanlar üçün bərabər imkanların təmin edilməsi məqsədilə anti-diskriminasiya və effektiv tədbirləri ümumiləşdirməklə açıq əmək bazarında bu şəxslərin məşğulluğunu dəstəkləmək;

ii. diskriminasiya hallarını aradan qaldırmaq və əlil insanların peşə qiymətləndirməsi, təlimatları və təlimi sistemlərində, eləcə də, məşğulluq xidmətlərində iştirakını dəstəkləmək;

#### *3.5.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Əlil insanların məşğulluğu ilə bağlı məsələləri ümumi məşğulluq siyasətlərində ön plana çəkmək;

ii. əlil şəxslərin aşağıdakı məsələlər üzrə obyektiv və fərdi qiymətləndirmə sisteminə çıxış imkanını təmin etmək:
– onların potensial iş yerinə uyğunluğunu müəyyənləşdirir;
– əsas diqqəti əlilliyin deyil, potensialın qiymətləndirilməsinə və onların xüsusi peşə təlimatlarına uyğunlaşdırılmasına yönəldir;
– onların peşə təlimi proqramı üçün baza yaradır;

– müvafiq iş yeri və ya yeni məşğulluq sahəsi tapmaqda onlara kömək etmək;

iii. mümkün qədər daha yüksək səviyyədə əlil şəxslər üçün peşə təlimatlarına, təliminə və məşğulluq xidmətlərinə çıxış imkanlarını təmin etmək və lazım olan təqdirdə, məqsədəuyğun uyğunlaşdırmalar həyata keçrimək;

iv. məşğulluğun bütün mərhələlərində, o cümlədən, seçmə, işə cəlb etmə və vəzifənin artırılması üzrə diskriminasiyaya qarşı müdafiəni təmin etmək;

v. aşağıdakı vasitələrlə müəssisə və təşkilatları əlil şəxsləri işə götürməyə həvəsləndirmək:

- əlil insanlar üçün müvafiq məşğulluq imkanlarının yaradılmasını təmin edən işə-qəbul prosedurları tətbiq etmək (məsələn, təbliğat, müsahibə, qiymətləndirmə, seçim);
- əlil insanların xüsusi tələblərinin ödənilməsi məqsədilə, iş yerlərində və ya iş şəraitində məqsədəmüvafiq uyğunlaşdırmalar aparmaq (o cümlədən, distant məşğulluq, yarım iş günü və ya evdə işləmək);
- müvafiq təlimlər vasitəsilə müdiriyyətin və işçi heyətinin əlillik barədə məlumatlılığını artırmaq;

vi. ümumi özünü-məşğulluq sxemlərinin əlil şəxslər üçün münasib olmasını və onları dəstəkləməsini təmin etmək;

vii. açıq əmək bazarında fərdi yardım olmadan ehtiyacı ödənilə bilməyən əlil şəxslər üçün uyğunlaşdırılmış və ya dəstəklənən məşğulluq kimi yardımçı tədbirləri təmin etmək;

viii. əlil şəxslərin uyğunlaşdırılmış və ya dəstəklənən məşğulluqdan tədricən açıq əmək bazarına keçməsini dəstəkləmək;

ix. əlilliyə görə müavinət sistemlərində işləmək üçün maneələri aradan qaldırmaq və mümkün olan təqdirdə benefisiarları işləməyə həvəsləndirmək;

x. məşğulluq sahəsində qadınlar üçün bərabər imkanların yaradılmasına dair proqram və siyasətlərin hazırlanması zamanı əlil qadınların ehtiyaclarını və uşağa qulluq məsələsini nəzərə almaq;

xi. məşğulluq şəraitinə dair məsləhətləşmələr, həmkarlar ittifaqlarına üzvlük və fəal iştirak baxımından əlil şəxslərin digər işçilər ilə bərabər hüquqlara malik olmasını təmin etmək;

xii. əlil insanların məşğulluğunun dəstəklənməsi üçün səmərəli tədbirlər həyata keçrimək;

xiii. səhiyyə və təhlükəsizlik sahəsində qanunverici və tənzimləyici bazanın əlil insanların ehtiyaclarını nəzərə aldığını və onlara qarşı diskriminasiyaya yol vermədiyini təmin etmək;

xiv. əlillik statusu alan zaman işləyən şəxslərin əmək bazarında qalması üçün müxtəlif tədbirləri, o cümlədən, qanunvericilik bazasını və inteqrasiyalı idarəetmə sistemini dəstəkləmək;

xv. bilik və bacarıqların artırılması, eləcə də məşğulluq təcrübəsi barədə məlumatların toplanılması məqsədilə, xüsusilə, gənc əlillərin təcrübə və praktik kurs keçməsini təmin etmək;

xvi. lazım olan təqdirdə, Avropa Sosial Xartiyasının (Yenidən Baxılmış) (ETS No 163), xüsusilə də, onun 15-ci maddəsinin imzalanmasını və ratifikasiya edilməsini nəzərdən keçirmək;

xvii. əlil insanların peşə potensialının qiymətləndirilməsinə dair xartiyanın ResAP(95)3 saylı Qətnaməsini həyata keçirmək.

### *3.6. Fəaliyyət istiqaməti No. 6: Fiziki infrastruktur*

*3.6.1. Giriş*

Ümumi məqsəd hamı üçün cəmiyyətin yaradılmasıdır. Çıxış imkanına malik mühit əlil insanların gündəlik həyatda iştirak edə bildiyi daha inteqrasiyalı cəmiyyətin yaradılmasında mühüm rol oynayır. Fiziki infrastrukturda mövcud olan maneələr əlil şəxsləri bu cür iştirakdan və fundamental hüquqlardan faydalanmasına imkan vermir və yə bunun qarşısını alır. Əlillik növündən asılı olmayaraq bütün şəxslər üçün infrastrukturdan istifadə imkanlarının yaradılması cəmiyyətin bütün üzvləri üçün faydalı olardı. Bu mövcud maneələrin, o cümlədən münasibət və fiziki baxımdan olan əngəllərin dərk edilməsini, eləcə də məqsədəuyğun tədbirlər vasitəsilə onların aradan qaldırılması istiqamətində səylərin göstərilməsini tələb edir. Universal dizayna dair ResAP(2001)1 saylı Qətnamə universal dizayn prinsiplərinin fiziki infrastrukturla əlaqəsi olan bütün işçilərin, o cümlədən, memarların, mühəndislərin, şəhər planlaşdırma mütəxəssislərinin və digər əlaqədar ixtisas və peşə sahiblərinin təhsili proqramlarına daxil edilməsini təşviq edir. O, eyni zamanda, fiziki infrastrukturu daha münasib, əlverişli və asan etməklə bütün şəxslərin həyatını sadələşdirmək məqsədini daşıyır.

*3.6.2. Məqsəd*

Universal dizayn prinsiplərinin tətbiq edilməsi və bununla da yeni maneələrin yaradılmasının qarşısının alınması vasitəsilə, tədricən əlil şəxslər üçün çıxış imkanına malik mühit yaratmaq.

*3.6.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Maneəsiz fiziki infrastrukturun yaradılması ilə bağlı ümumi məqsədin bütün müvafiq siyasət sahələrinə daxil edilməsini təmin etmək;

ii. tarixi binaların səciyyəvi xüsusiyyətlərini nəzərə almaqla, əlil şəxslərin ictimai binalara, daxili və xarici ictimai infrastruktura çıxış və onlardan istifadə imkanının yaradılmasını dəstəkləmək məqsədilə təlimatlar, standartlar və zərurət olduğu təqdirdə, qanunverici baza yaratmaq;

iii. fiziki infrastrukturla əlaqəsi olan bütün mütəxəssislərin (o cümlədən, memarlar, şəhər planlaşdırma və tikinti mütəxəssisləri, mədəni irsin qoruyucuları və mədəni turizm sahəsi üzrə mütəxəssislər) hazırlanması ilə məşğul olan universitetlərin və institutların ilkin təhsil və ixtisasartırma kurslarının tədris proqramı, habelə, digər müvafiq vasitələrlə universal dizayn prinsiplərini təşviq etmək;

iv. fiziki infrastruktura çıxış imkanlarının yaxşılaşdırılması, eləcə də icma həyatında iştirak istiqamətində əlil şəxslər üçün bərabər şəraitin yaradılması məqsədilə, yardımçı avadanlıqlardan və texnoloji innovasiyalardan istifadəni dəstəkləmək. Bu təcrübə yeni tikintilər üçün tətbiq edilməli və sonra, tədricən mövcud binalara da aid edilməlidir;

v. universal dizayn prinsiplərini təbliğ edən mərkəzlərin yaradılmasını, mükafatlandırılmasını və saxlanılmasını dəstəkləmək;

vi. fövqəladə hallar və binanın boşaldılması prosedurlarının hazırlanması zamanı əlil insanların təhlükəsizliyinə lazımi diqqətin yetirilməsini təmin etmək;

vii. əlil şəxsləri müşaiət edən yardımçı heyvanların binalara və ictimai yerlərə giriş imkanını təmin etmək;

viii. universal dizayn prinsiplərinin fiziki infrastruktur sahəsində çalışan bütün mütəxəssislərin təhsil proqramına daxil edilməsi ilə bağlı ResAP(2001)1 saylı Qətnaməni həyata keçirmək.

## *3.7. Fəaliyyət istiqaməti No. 7: Nəqliyyat*

### *3.7.1. Giriş*

Bütün səviyyələrdə çıxış imkanına malik nəqliyyat siyasətlərinin hazırlanması və həyata keçirilməsi əksər əlil insanların həyat şəraitini kifayət qədər yaxşılaşdıra bilməklə yanaşı, bərabər imkanların, müstəqil həyatın, icmanın sosial və mədəni həyatında fəal iştirakın, eləcə də məşğulluğun əldə edilməsi üçün ilkin şərt ola bilər.

Əksər üzv ölkələr artıq Avropa Nəqliyyat Nazirləri Konfransı (ANNK) vasitəsilə bu hadisələrdən xəbərdar və ya onun tərkib hissəsi ola biləcəkdir və sözügedən forum tərəfindən təşviq edilən prinsiplər və tədbirlər üzv dövlətlərin Əlillik üzrə Tədbirlər Planının icrasını istiqamətləndirə bilər. Çıxış imkanlarına malik nəqliyyat sisteminin yaradılması digər şəxslər, o cümlədən, yaşlılar və azyaşlı uşaqların valideynləri üçün də faydalı olacaqdır.

Əlil insanların ictimai nəqliyyat vasitələrindən faydalanmasını təmin etmək üçün bütün nəqliyyat şəbəkəsinin çıxış imkanına malik olması mühüm əhəmiyyət kəsb edir.

### *3.7.2. Məqsədlər*

i. Çıxış imkanına malik nəqliyyat siyasətləri həyata keçirməklə əlil insanların cəmiyyətdə iştirakını genişləndirmək;

ii. çıxış imkanına malik nəqliyyat siyasətlərini həyata keçirən zaman müxtəlif xəstəliklərə və əlillik səbəblərinə malik bütün insanların ehtiyaclarının nəzərə alınmasını təmin etmək;

iii. bütün əlil şəxslər üçün mövcud sərnişin nəqliyyatı sistemindən istifadə imkanlarının yaradılmasını təşviq etmək və bütün yeni nəqliyyat xidmətlərinin və müvafiq infrastrukturun çıxış imkanına malik olmasını təmin etmək;

iv. universal dizayn prinsipinin nəqliyyat sektorunda tətbiqini dəstəkləmək.

### *3.7.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Nəqliyyat xidmətlərinin, infrastrukturun, o cümlədən, maddi bazanın çıxış imkanına malik olmasını təmin etmək məqsədilə, beynəlxalq qurumlar tərəfindən tərtib edilən və razılaşdırılan, xüsusilə, standartların, təlimatların, strategiyaların və müvafiq olan təqdirdə qanunların hazırlanması ilə bağlı tövsiyələri, hesabatları və göstərişləri nəzərə almaq;

ii. çıxış imkanına malik nəqliyyat siyasətlərini monitorinq və təhlil etmək;

iii. ictimai nəqliyyat idarələri tərəfindən nəqliyyat xidməti təminatı sahəsinə cəlb edilən işçi heyəti üçün standart təlim kurslarının tərkib hissəsi kimi əlillik barədə məcburi məlumatlandırma təlimlərinin keçirilməsini təmin etmək;

iv. həm dövlət, həm də özəl nəqliyyat idarələri tərəfindən istifadə edilməsi üçün çıxış imkanına malik nəqliyyat xidmətlərinə dair milli təlimatların tətbiq və qəbul edilməsini dəstəkləmək;

v. çıxış imkanına malik nəqliyyat sistemi ilə bağlı plan və siyasətlərin hazırlanması zamanı məlumatların əldə edilməsi məqsədilə, müvafiq maraqlı tərəflər, o cümlədən, xüsusilə əlaqədar dövlət qurumları, xidmət təminatçıları və əlillərin maraqlarını müdafiə edən təşkilatlar ilə əməkdaşlığın qurulması və məsləhətləşmələrin aparılması üçün prosedurlar yaratmaq;

vi. çıxış imkanına malik xidmətlərin təmin edilməsi istiqamətində özəl nəqliyyat idarələrini dəstəkləmək və həvəsləndirmək;

vii. əlil insanlara xidmət göstərmək məqsədilə, ictimai nəqliyyat sistemlərinə dair məlumatların müxtəlif formatlarda və kommunikasiya sistemləri vasitəsilə mümkün qədər geniş yayılmasını təmin etmək;

viii. ictimai nəqliyyatdan istifadə etməkdə çətinlik çəkən əlil şəxslərin şəxsi avtomobildən faydalanmasını dəstəkləyən innovativ proqramların hazırlanmasını təşviq etmək;

ix. əlil şəxsləri müşaiət edən köməkçi heyvanların (məsələn, bələdçi itlər) ictimai nəqliyyata buraxılmasını təmin etmək;

x. hərəkət imkanları məhdud olan əlil şəxslər üçün avtomobil dayanacaqlarının yaradılmasını və saxlanılmasını təmin etmək;

xi. sərnişin hüquqlarına dair ümumi mətnlərin hazırlanması zamanı əlil insanların xüsusi ehtiyaclarını nəzərə almaq;

xii. nəqliyyatdan istifadə imkanları istiqamətində əlillərə qarşı diskriminasiya hallarının qanunvericilik vasitəsilə qarşısını almaq;

xiii. nəqliyyat təhlükəsizliyi normalarının və fövqəladə hallar üzrə prosedurların əlil insanlar üçün əlavə ayrı-seçkilik yaratmamasını təmin etmək;

### *3.8. Fəaliyyət istiqaməti No 8: İcma həyatı*

#### *3.8.1. Giriş*

Bu fəaliyyət istiqamətində əsas diqqət əlil insanların mümkün qədər müstəqil həyat tərzi sürməsinin, eləcə də, harada və necə yaşaması barədə seçim etmək imkanının təmin edilməsinə yönəldilir. Bunun üçün institusional qayğı sistemindən icma-əsaslı mühitə keçidi dəstəkləyən strateji siyasətlər tələb edilir (müstəqil həyat üçün tədbirlərdən tutmuş xüsusi yardımçı avadanlıqlara təchiz edilmiş kicik miqyaslı yaşayış yerlərinə qədər). Bu tip siyasətlər çevik olmalı, əlil insanların ailəsi ilə yaşamasını təmin edən proqramları əhatə etməli və böyük qayğı tələb edən əlil şəxslərin xüsusi ehtiyaclarını nəzərə almalıdır.

Ümumiyyətlə, əlil uşağın olub-olmamasından asılı olaraq, ailənin gündəlik həyat tərzi kifayət qədər fərqlənir: məsələn, vaxtın əksər hissəsi qayğıya və nəzarətə sərf edilir, həkimlərin, terapevtlərin və s. yanına getmək zəruridir, uşaqların bərpa kursları keçməsində diqqət və gündəlik həyatda praktik

yardım tələb olunur və s. Əlil uşaqların normal həyat sürməsini mümkün qədər təmin etmək məqsədilə, zəruri biliklərin öyrənilməsi üçün valideynlərin müvafiq təlimlər keçə bilməsi mühüm əhəmiyyət kəsb edir.

Bütün şəxslər tam müstəqil həyat tərzi seçiminə malik olmaya bilər. Bəzi hallarda, müəssisələrdə yaşayış əvəzinə kiçik və keyfiyyətli strukturlarda qayğı dəstəklənməlidir. Əlil insanlar və onları təmsil edən təşkilatlar müstəqil yaşayış məkanlarının hazırlanması prosesinə cəlb edilməlidir.

İcmada yaşayan əlil insanlar müxtəlif səviyyədə qayğı, yardım və dəstək tələb edən fərqli ehtiyaclara malikdirlər. Əlil insanın özünün şəxsi seçimini, müstəqilliyini və maddi rifahını nəzərə alan şəffaf uyğunluq meyarları və müstəqil fərdi qiymətləndirmə prosedurları xidmətlərdən bərabər istifadə imkanlarını dəstəkləyəcəkdir.

Müstəqil həyat tərzi siyasətləri təkcə yaşayış yerləri ilə məhdudlaşmır və geniş çeşiddə xidmətlərdən, o cümlədən nəqliyyat sisteminə çıxış imkanlarından asılıdır. Bu cür siyasətlərin uğurla həyata keçirilməsi məqsədilə  müxtəlif qurumların göstərdiyi ümumi xidmətlərin əlil şəxslərin də ehtiyaclarının ödəməsini təmin etmək üçün onların planlaşdırılması, hazırlanması və həyata keçirilməsi istiqamətində ümumi yanaşma tələb edilir. Bu isə, öz növbəsində, əlaqələndirilmiş yanaşmanı şərtləndirəcəkdir.

*3.8.2. Məqsədlər*

i. Əlil şəxslərin öz həyatını planlaşdırmasını və icmada mümkün qədər müstəqil yaşamasını təmin etmək;

ii. müstəqil seçim imkanlarının yaradılması üçün icma səviyyəsində geniş çeşiddə keyfiyyətli yardımçı xidmətlər təmin etmək;

iii. əlil uşaq və ya uşaqlara malik ailələrin şəraitinə xüsusi diqqət yetirmək və onların valideynlərinin, eləcə də əlil valideynlərin uşaqların tərbiyəsində və təhsilində iştirak etməsi üçün təlimlərin təşkili yanaşmasını təşviq etmək.

*3.8.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Əlil şəxslərin icmalarda yaşaması və həyat şəraitinin yüksəldilməsi istiqamətində icma-əsaslı keyfiyyətli xidmətlərin göstərilməsində əlaqələndirlmiş yanaşmanı təmin etmək;

ii. əlil şəxslərin icmalarda yerləşən münasib evlərdə yaşamasını təmin edən mənzil siyasətləri hazırlamaq və təşviq etmək;

iii. əlil şəxslərin evlərdə yaşamasını mümkün edən rəsmi və qeyri-rəsmi yardımı dəstəkləmək;

iv. qayğı göstərən şəxslərin vəziyyətini nəzərə almaq, onlara yardım etmək və müvafiq təlimlər təşkil etmək;

v. şəxsi və iş həyatının uyğunlaşdırılması və gender bərabərliyi məsələlərinə xüsusi diqqət yetirməklə, ailə çərçivəsində yaşayışı dəstəkləmək üçün informasiya, təlim və yardımların, o cümlədən, psixoloji yardımın təmin edilməsi məqsədilə, qeyri-rəsmi qayğı təminatçısı olan ailələrin, ilk növbədə, əlil uşaqlara və ya böyük qayğıya ehtiyacı olan şəxslərə malik ailələrin ehtiyaclarını müfəssəl şəkildə qiymətləndirmək;

vi. institutlardan icma həyatına keçidi dəstəkləyən icma-əsaslı keyfiyyətli xidmətlərin göstərilməsini və alternativ mənzil modellərini təmin etmək;

vii. lazım olan təqdirdə, ixtisaslı məsləhətçilərin yardımı vasitəsilə fərdlərin məlumata əsaslanan seçimlər etməsini təmin etmək;

viii. əlil insanlara öz seçimləri əsasında şəxsi köməkçilər tutmağa imkan verən modelləri dəstəkləmək;

ix. əlil insanlara və onların ailələrinə dəstək və istirahət vermək üçün müvafiq terapiya kursları təklif edən yardımçı xidmətlər və digər obyektlər, məslən, gündüz fəaliyyət göstərən mərkəzlər, qısa iş gününə malik mərkəzlər və ya özünü-ifadə-edən qruplar təmin etmək;

x. hər hansı sosial təcrid riskinin aradan qaldırılması məqsədilə, əlil insanlar, xüsusilə də, böyük qayğıya ehtiyacı olan əlil şəxslər üçün uyğunlaşdırılmış yardım xidmətləri, o cümlədən, dəstək təmin etmək;

xi. iş və ailə həyatının uyğunlaşdırılmasına dair Nazirlər Komitəsinin üzv dövlətlər üçün R(96)5 saylı tövsiyəsinin müvafiq müddəalarını həyata keçirmək.

### *3.9. Fəaliyyət istiqaməti No. 9: Səhiyyə*

#### *3.9.1. Giriş*

Əlil şəxslər cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə mümkün qədər yaxşı sağlamlıq durumuna malik olmaq üçün yüksək keyfiyyətli səhiyyə xidmətlərindən, müvafiq müalicə üsullarından və texnologiyalarından istifadə etmək hüququna malikdir. Bir sıra hallarda, həyat şəraitinin yaxşılaşdırılması məqsədilə, əlil şəxslər xüsusi və innovativ səhiyyə xidmətləri tələb edə bilər. Fərdi qayğı planının hazırlanması zamanı qərar qəbulu prosesində əlil şəxslər və onların təmsilçiləri ilə məsləhətləşmələr aparılmalı və onlar tam şəkildə bu prosesə cəlb edilməlidir. Bu yanaşma əlil şəxslərə planlaşdırma və xidmət təminatının hazırlanması prosesində mühüm rol verir və fərdlər üçün öz həyatlarına dair məlumatlara əsaslanan qərar qəbul etmək səlahiyyəti təmin edir. Səhiyyə xidmətlərinin planlaşdırılması və təminatı zamanı yaşlı əhali, xüsusilə də, əlil şəxslər və onların səhhəti barədə məsələlərə diqqət yetirmək lazımdır. Bu baxımdan da, səhiyyə sistemində yeni strategiya və siyasətlərin hazırlanması prioritet istiqamət təşkil etməlidir.

Bütün üzv dövlətlərin səhiyyə işçiləri əlilliyin sosial və insan hüquqları modelini qəbul etməli və onun təkcə tibbi modelinə diqqət yetirməməlidir.

#### *3.9.2. Məqsədlər*

i. Cinsindən, yaşından və əlillik səbəbinin xarakterindən, mənbəyindən və səviyyəsindən asılı olmayaraq bütün əlillərin:
– bütün səhiyyə xidmətlərindən bərabər istifadə imkanlarını;
– müvafiq olan təqdirdə, mövcud xüsusi xidmətlərdən faydalana bilməsini;
– özlərinin fərdi qayğı planları üzrə qərar qəbulu prosesinə mümkün qədər tam cəlb edilməsini təmin etmək;

ii. əlil insanların ehtiyaclarının tibbi məlumatlandırma və ictimai səhiyyə kampaniyalarına daxil edilməsini təmin etmək.

#### *3.9.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Heç bir əlil şəxsin səhiyyə xidmətlərinə çıxış imkanı və qeydiyyat baxımından diskriminasiyaya məruz qalmamasını təmin etmək;

ii. fərdi səhiyyə planının, tibbi terapiya və müalicə xidmətlərinin qiymətləndirilməsi, hazırlanması və tətbiq edilməsi prosesi zamanı hər bir əlil şəxs və ya əlillik səbəbinin xarakterindın, mənbəyindən və səviyyəsindən asılı olaraq, bu mümkün olmadıqda isə, onun təmsilçisi, himayədarı və ya hüquq müdafiəçisi ilə mümkün qədər maksimum səviyyədə məsləhətləşmələrin aparılmasını təmin etmək;

iii. dövlət və özəl səhiyyə ocaqlarına və avadanlıqlara çıxış imkanının yaradılması istiqamətində işlər aparmaq, habelə, əlil insanların tələblərinə cavab verməsi üçün tibbi xidmətlərin, o cümlədən, psixi sağlamlıq, psixoloji yardım, ambulator və stasionar xidmətlərin lazımi avadanlıqlarla təchiz edilməsini və standartlara uyğun olmasını təmin etmək;

iv. əlil qadınların səhiyyə xidmətlərindən, o cümlədən, xüsusilə də, hamiləlik dövrü və ginekoloji xidmətlərdən, habelə, ailə planlaşdırması üzrə məsləhətlərdən bərabər istifadə imkanlarını təmin etmək;

v. əlil insanlar üçün səhiyyə xidməti sahəsində gender xüsusiyyətlərinin nəzərə alınmasını təmin etmək;

vi. əlil şəxsin başa düşə bildiyi formatda fərdin tibbi ehtiyacları və ya səhiyyə xidmətləri barədə bütün müvafiq məlumatların verilməsi istiqamətində məqsədyönlü tədbirlərin görülməsini təmin etmək;

vii. doğumdan əvvəl və ya sonra, habelə, xəstəlik və ya bədbəxt hadisə əsnasında baş verməsindən asılı olmayaraq, əlillik statusu barədə məlumatın verilməsi zamanı müvafiq şəxsin və ailənin hisslərinə hörmət etmək, eləcə də onlar üçün aydın, ətraflı informasiya və yardım xidməti təmin etmək;

viii. digər tədbirlərlə yanaşı, əlil şəxslər üçün informasiya və məsləhət xidməti vasitəsilə tibbi məlumatlara və ictimai səhiyyə kampaniyalarına çıxış imkanını təmin etmək;

ix. əlil insanların xüsusi ehtiyaclarının ödənilməsi məqsədilə, səhiyyə işçilərinin təlimi zamanı əlillik barədə məlumatlılığı bilik və metodlarla barəbər aşılamaq (uyğunlaşdırmaq);

x. erkən müdaxilələrin əhəmiyyətini qəbul etmək və bu baxımdan, xəstəliklərin erkən mərhələdə müəyyən edilməsi, diaqnoz qoyulması və müalicə edilməsi istiqamətində səmərəli mexanizm yaratmaq, habelə, erkən müəyyən etmə və müdaxilə tədbirləri üçün effektiv təlimatlar hazırlamaq;

xi. mümkün olan təqdirdə, Avropa Sosial Xartiyasının (Yenidən Baxılmış), xüsusilə onun 11-ci maddəsinin imzalanmasını və ratifikasiya edilməsini nəzərdən keçirmək.

### *3.10. Fəaliyyət istiqaməti No. 10: Reabilitasiya*

#### *3.10.1. Giriş*

Nazirlər Komitəsinin əlil insanlar ilə bağlı sistemli siyasətə dair R(92)6 saylı tövsiyəsində qeyd edilir ki, iqtisadi və sosial inteqrasiyaya nail olması baxımından əlil insanların reabilitasiyası icmanın

vəzifəsidir və o, insan varlığının şərəf və ləyaqətini təmin edir, cəmiyyətdən doğan və əlil insanların qarşılaşdığı çətinlikləri yüngülləşdirir. Reabilitasiya proqramı hər bir cəmiyyətin prioritet məqsədləri sırasına daxil olmalıdır. Sözügedən tövsiyəyə uyğun olaraq, əlil insanların reabilitasiyasına dair sistemli siyasət əlilliyin ağırlaşmasının qarşısının alınmasına, onun nəticələrinin yüngülləşdirilməsinə, əlil şəxslərin fərd kimi müstəqilliyinin artırılmasına və onların iqtisadi müstəqilliyinin və cəmiyyətə tam inteqrasiyasının təmin edilməsinə istiqamətlənməlidir.

*3.10.2. Məqsədlər*

i. Əlil şəxslərin maksimum müstəqil olmasını, eləcə də, fiziki, əqli, sosial və peşə potensialından tam şəkildə faydalanmasını təmin etmək;

ii. hərtərəfli reabilitasiya xidmətləri təşkil etmək, gücləndirmək və genişləndirmək;

iii. əlil şəxslərin yaşadığı icma və cəmiyyət çərçivəsində tam sosial inteqrasiyasını təmin etmək məqsədilə ümumi və xüsusi xidmətlərdən istifadə imkanları yaratmaq;

iv. xüsusilə, anadan olduğu vaxtdan başlayaraq, yüksək keyfiyyətli ilkin müalicə xidmətləri, çoxsahəli yanaşma, o cümlədən valideynlər üçün yardım və təlimatlar təmin etmək.

*3.10.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Milli reabilitasiya siyasətləri hazırlamaq, həyata keçirmək və müntəzəm yeniləmək, eləcə də, davamlı irəliləyişləri təmin etmək;

ii. inteqrasiyalı reabilitasiya proqramlarının hazırlanması, həyata keçirilməsi və qiymətləndirilməsi prosesinə əlil şəxslərin, onların ailələrinin və təmsilçi təşkilatlarının cəlb edilməsini təmin etmək;

iii. reabilitasiya proqramlarının əlil şəxslər üçün çıxış imkanına malik olmasını və onların fərdi ehtiyaclarına uyğun hazırlanmasını təmin etmək; bu zaman əlil şəxsin və ya onun təmsilçisinin razılığı tələb edilir;

iv. mümkün olan təqdirdə, ümumi xidmətlərdən və obyektlərdən istifadə etmək, lakin, eyni zamanda, göstərdiyi xidmətlərə müvafiq olaraq xüsusi reabilitasiya mərkəzlərinin mümkün qədər tam şəkildə avadanlıqlara və reabilitasiya sahəsində ixtisaslaşan müxtəlif sahələri təmsil edən işçi heyətinə malik olmasını təmin etmək;

v. inteqrasiyalı yanaşmadan istifadə etməklə fərdi çoxsahəli qiymətləndirmə metodu vasitəsilə reabilitasiya xidmətlərini və yardımını genişləndirmək;

vi. bütün əlaqədar sahələrin, xüsusilə də, səhiyyə, təhsil, sosial və məşğulluq sektorlarının cəlb edilməsi ilə çox sektorlu əməkdaşlıq prinsipini təşviq etmək və lazım olan təqdirdə əlil şəxslərin bərabər imkanlara malik olmasını təmin etmək üçün inteqrasiyalı idarəetmə üsulunu tətbiq etmək;

vii. əlil uşaqların təhsili zamanı onların potensialından tam faydalanmağa imkan verən pedaqoji reabilitasiya proqramlarına və digər mənbələrə çıxış imkanını təmin etmək;

viii. əlil olan şəxslərin ilkin fürsət yaranan kimi işə qayıtmasını dəstəkləmək üçün işçiləri, işəgötürən şəxsləri və onların təşkilatlarını peşə reabilitasiyası proqramlarına cəlb etmək;

ix. tələb olunan təqdirdə, əlil şəxslər üçün fərdi və icma-əsaslı reabilitasiya proqramlarının hazırlanması istiqamətində işlər görmək;

x. tələb olunan təqdirdə, əlil şəxslər üçün reabilitasiya tədbirlərinin/proqramlarının tərkib hissəsi kimi yardımçı mexanizmlərin mövcudluğunu və münasibliyini təmin etmək;

### *3.11. Fəaliyyət istiqaməti No. 11: Sosial müdafiə*

*3.11.1 Giriş*

Sosial müdafiə sistemi benefisiarların həyat səviyyəsinə təsir etməsi səbəbindən ondan asılı şəxslər üçün mühüm əhəmiyyət kəsb edən sosial təminat, sosial yardım və ya dəstək, habelə, sosial xidmətlərdən ibarətdir. Lakin bir sıra hallarda, bu tip sistemin olmaması və ya çıxış imkanlarının çətin olması və s. səbəblərdən əlil şəxslər sosial müdafiə sistemlərindən lazımi səviyyədə faydalan bilmirlər. Yenidən Baxılmış Avropa Sosial Xartiyasında (ETS No 163), xüsusilə, sosial təminat hüququ (Maddə 12), sosial və tibbi yardım hüququ (Maddə 13) və sosial rifah xidmətlərindən faydalanmaq hüququ (Maddə 14) öz əksini tapmışdır. Sözügedən hüquqların təmin edilməsi sosial təcrid və kənarlaşdırma riskinin azaldılmasına kömək edir və bununla da Xartiyada qeyd edilən digər bir hüquqa, daha dəqiq desək, əlil şəxslərin müstəqillik, sosial inteqrasiya və yaşadıqları icmanın həyatında iştirak hüququna (Maddə 15) öz töhfəsini verir.

*3.11.2 Məqsədlər*

i. Əlil insanlar üçün sosial müdafiə sisteminə bərabər çıxış imkanları yaratmaq;

ii. mümkün olan təqdirdə, maliyyə yardımlarından asılı sistemdən məşğulluq və müstəqillik sisteminə keçid istiqamətində siyasətləri dəstəkləmək.

*3.11.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. İnsanları passiv müavinətdən asılılıq mexanizmindən çəkindirmək məqsədilə, sosial müdafiə tədbirləri ilə aktiv məşğulluq meylli siyasətlər arasında müvafiq tarazlığı təmin etmək;

ii. sosial xidmətlərin və müvafiq yardımların hər bir şəxsin ehtiyaclarının düzgün, çoxsahəli qiymətləndirilməsi prosesinə əsaslandığını və müntəzəm olaraq təhlil edildiyini təmin etmək;

iii. əlil insanların və ya onların nümayəndələrinin müavinətlərin qiymətləndirilməsi üzrə bütün sistemlərə və prosedurlara çıxış imkanına malik olmasını təmin etmək;

iv. ümumi sosial xidmətlər çərçivəsində əlil insanların və onların ailələrinin xüsusi ehtiyaclarının nəzərə alınmasını təmin etmək;

v. göstərilən keyfiyyət xidmətlərinin əlil şəxslərin ehtiyaclarını ödəməsi üçün sosial xidmətlər təmin edən inzibati şöbələr daxilində və xaricində, habelə, dövlət və özəl xidmət təminatçıları arasında əlaqələndirmənin davamlı olaraq təkmilləşdirilməsini təmin etmək;

vi. sosial müdafiə siyasətlərinin hazırlanması və həyata keçirilməsi istiqamətində sosial tərəfdaşlar və digər əsas maraqlı tərəflər, o cümlədən, əlil insanların təşkilatları ilə məsləhətləşmələr aparmaq;

vii. sosial təcrid riski ilə üzləşən əlil şəxslərə xüsusi diqqət yetirməklə, əlillərin faydalana biləcəyi bütün sosial müdafiə müavinətləri barədə məlumatların səmərəli şəkildə yayılmasını təmin etmək;

viii. sosial inteqrasiya və yoxsulluğun azaldılması strategiyaları çərçivəsində əlil insanların xüsusi ehtiyaclarının nəzərə alınmasını təmin etmək;

ix. mümkün olan təqdirdə, Avropa Sosial Xartiyasının (Yenidən Baxılmış), Avropa Sosial Təminat Məcəlləsinin (ETS No. 48), Yenidən Baxılmış Avropa Sosial Təminat Məcəlləsinin (ETS No. 139) və Avropa Sosial Təminat Konvensiyasının (ETS No. 78) imzalanmasını və ratifikasiya edilməsini nəzərdən keçirmək.

x. Nazirlər Komitəsinin sosial hüquqlardan istifadə imkanlarına dair üzv dövlətlərə Rec(2003)19 saylı tövsiyəsinin müvafiq müddəalarını həyata keçirmək.

### *3.12. Fəaliyyət istiqaməti No. 12: Hüquqi müdafiə*

*3.12.1. Giriş*

Əlil insanlar hər yerdə qanun qarşısında mükəlləfiyyətli şəxs kimi hesab edilməlidirlər. Bu hüququn praktikada tətbiq edilməsi istiqamətində yardım tələb olunduqda, üzv dövlətlər qanunvericilik çərçivəsində lazimi dəstəyi təmin etməlidir.

Əlil şəxslər müxtəlif insan qruplarını əhatə etsə də, onları birləşdirən bir ümumi məqam vardır ki, bu da onların cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə öz hüquqlarından tam faydalanması və cəmiyyətdə iştirak etməsi üçün az və ya çox səviyyədə əlavə təminata ehtiyac duymaları ilə bağlıdır.

Əlil şəxslərin digər insanlar ilə bərabər şəkildə öz hüquqlarından istifadə etməsi məsələsinə xüsusi diqqətin yetirilməsinə ehtiyacın olması milli və beynəlxalq səviyyələrdə həyata keçirilən təşəbbüslər vasitəsilə təsdiq edilmişdir.

Diskriminasiya hallarının qarşısının alınması prinsipi əlil şəxslər üçün bərabər imkanların təmin edilməsi istiqamətində dövlət tərəfindən hazırlanan siyasətlərin əsasını təşkil etməlidir.

Hüquq sisteminə çıxış imkanı demokratik cəmiyyətin fundamental hüququ olsa da, əlil şəxslər, əksər hallarda, bir sıra maneələr, o cümlədən, fiziki baxımdan çıxış imkanında çətinliklər ilə üzləşə bilərlər. Bunun üçün müxtəlif çoxsaylı tədbirlər və səmərəli fəaliyyət, o cümlədən, hüquq sistemi işçiləri arasında əlillik məsələsi barədə məlumatlılığın artırılması tələb edilir.

*3.12.2. Məqsədlər*

i. Əlil şəxslər üçün digər insanlar ilə bərabər şəkildə hüquq sisteminə səmərəli çıxış imkanı təmin etmək;

ii. əlil insanların digər şəxslər ilə bərabər şəkildə bütün insan hüquqlarından və fundamental azadlıqlarından faydalanmasını dəstəkləmək və genişləndirmək.

*3.12.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Xüsusi qanunvericilik bazasının, qurumların, hesabat prosedurlarının və bərpa mexanizmlərinin yaradılması vasitəsilə diskriminasiya hallarının qarşısını almaq;

ii. əlil insanlara qarşı diskriminasiya hallarına yol verən müddəaların ümumi qanunvericilik bazasından çıxarılmasını təmin etmək;

iii. hüquq mühafizə orqanlarının əməkdaşları, dövlət qulluqçuları, ədliyyə və səhiyyə sistemlərinin işçiləri üçün insan hüquqları və əlillik barədə təlimlərin təşkilini (milli və beynəlxalq səviyyələrdə) dəstəkləmək;

iv. əlil insanların hüquqlarının müdafiəsi sahəsində çalışan qeyri-hökumət təşkilatları şəbəkəsini dəstəkləmək;

v. əlil insanların münasib informasiya və kommunikasiya sistemlərindən istifadə hüququnu təmin etməklə onlar üçün ədliyyə sisteminə bərabır çıxış imkanları yaratmaq;

vi. öz hüquq potensialından istifadə etməkdə çətinlik çəkən şəxslərə müvafiq yardım göstərmək və bunun tələb edilən səviyyədə olmasını təmin etmək;

vii. qanunla müəyyən edilən hallar istisna olmaqla, əlil şəxslərin azadlıqdan məhrum edilməməsini təmin etmək üçün lazımi tədbirlər görmək;

viii. əlil insanlara digər şəxslər ilə eyni səviyyədə öz mülkiyyətlərinin idarə edilməsi üzrə hüquqi yardımın göstərilməsilə, onların bərabər şəkildə mülkiyyətə sahib olması və irsən alması hüququnun təmin edilməsi istiqamətində səmərəli tədbirlər həyata keçirmək;

ix. əlil şəxslərin öz istəyi olmadan tibbi təcrübələrə məruz qalmasının qarşını almaq;

x. Nazirlər Komitəsinin əlil böyüklərin hüquqi müdafiəsinə dair üzv dövlətlərə R(99)4 saylı tövsiyəsinin müvafiq müddəalarını həyata keçirmək;

### *3.13. Fəaliyyət istiqaməti No. 13: Zorakılıq və təhqir hallarına qarşı müdafiə*

#### *3.13.1. Giriş*

İstənilən şəxsə qarşı törədilən təhqir və ya zorakılıq halları yolverilməzdir və cəmiyyət vətəndaşların, xüsusilə də, ən həssas qrupların bu cür hallardan qorunması üçün məsuliyyət daşıyır.

Mövcud göstəricilər əlil insanlara qarşı törədilən təhqir və zorakılıq hallarının səviyyəsinin digər şəxslər ilə müqayisədə kifayət qədər yüksək olduğunu göstərir. Digər tərəfdən, sözügedən hallar əlil qadınlar, xüsusilə də, daha ağır əlillik statusuna malik qadınlar arasında sağlam qadınlar ilə müqayisədə həddindən artıq yüksəkdir. Bu cür təhqir halları institutlarda və ya digər qayğı müəssisələrində, o cümlədən ailələrdə baş verə bilir. Bu hallar fərdin tanıdığı və yaxud da, kənar şəxslər tərəfindən müxtəlif formalarda (məsələn, şifahi təhqir, fiziki zorakılıq və ya zəruri ehtiyacların ödənilməsindən imtina və s.) törədilə bilər.

Hökumətlər təhqir və zorakılıq hallarının baş verməməsini təmin edə bilməsələr də, onlar mümkün qədər güclü müdafiə və təminat sisteminin yaradılması istiqamətində əllərindən gələni etməlidirlər. Müxtəlif vasitələrlə, xüsusilə də, fərdlərin müdafiə hüququnun qiymətləndirilməsi, eləcə də təhqir riskinin etiraf edilməsi və azaldılması istiqamətində məlumatlandırma işləri ilə bu cür halların qarşısını almaq olar. Təhqir və zorakılıq hallarına məruz qalan əlil şəxslər müvafiq yardımçılara çıxış imkanına malik olmalıdırlar. Onların təhqir halları barədə müraciət etməsi üçün kifayət qədər etibar etdikləri qurumlar olmalıdır ki, onlar da, öz növbəsində, müraciətlər üzrə müvafiq tədbirlər həyata

keçirməli və fərdi yardım göstərməlidir. Belə qurumlar təhqir hallarının müəyyən edilməsi və müvafiq tədbirlərin görülməsi üzrə ixtisaslaşan və təcrübəyə malik işçi heyətinə malik olmalıdır.

Son illərdə bir sıra tədqiqatların həyata keçirilməsinə baxmayaraq, gələcək strategiyaların və ən yaxşı təcrübələrin məlumatla təmin edilməsi üçün hələ geniş miqyasda biliklərin tələb olunduğu aydın nəzərə çarpır.

*3.13.2. Məqsədlər*

i. Anti-diskriminasiya və insan hüquqları çərçivələrində əlil şəxslərin istənilən təhqir və zorakılıq hallarından müdafiəsini təmin etmək;

ii. əlil şəxslərin təhqir və zorakılıq hallarının qurbanlarına yardım göstərən sistemlərə çıxış imkanını təmin etmək;

*3.13.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Lazım olan təqdirdə, siyasət və qanunvericiliyin səmərəli şəkildə həyata keçirilməsi vasitəsilə əlil insanların zorakılıq və təhqir hallarından qorunması üçün müdafiə sistemi yaratmaq;

ii. zorakılıq və təhqir hallarının azaldılması məqsədilə, əlil şəxslər üçün təlim kurslarının (məsələn, özünə-inam hissi və səlahiyyətləndirmə kursları) mövcudluğunu və onlara çıxış imkanını təmin etmək;

iii. əlil insanlar üçün nəzərdə tutulmuş proseslər, tədbirlər və protokollar hazırlamaq, zorakılıq və təhqir hallarının aşkar edilməsi səviyyəsini yüksəltmək və qanunu pozan şəxslərə qarşı lazımi tədbirlərin görülməsini, o cümlədən hüququn bərpa edilməsini və psixoloji problemlər zamanı müvafiq peşəkar məsləhət xidmətini təmin etmək;

iv. zorakılıq və təhqir, o cümlədən məişət zorakılığı hallarının qurbanı olan əlil şəxslərin müvafiq yardım xidmətlərinə çıxış imkanlarını və hüquqlarının bərpasını təmin etmək;

v. ailələrə yardımın göstərilməsi, ictimai maarifləndirmə və məlumatlandırma tədbirləri, müvafiq tərəflər arasında müzakirələrin və əməkdaşlığın dəstəklənməsi vasitəsilə zorakılıq, pis rəftar və təhqir hallarının qarşısını almaq və ona qarşı mübarizə aparmaq;

vi. informasiya və xidmətlərə çıxış imkanının təmin edilməsi vasitəsilə təhqir halları ilə üzləşən əlil şəxslərə, xüsusilə də, qadınlara və onların ailələrinə yardım göstərmək;

vii. psixiatrik xəstəxanalarda, sosial qayğı mərkəzlərində və institutlarında, uşaq evlərində və digər müəssisələrdə əlil şəxsləri təhqir hallarından müdafiə edən sistemlərin mövcud olmasını təmin etmək;

viii. əlil institutlarında və ümumi yardım xidməti sistemlərində çalışan bütün işçi heyəti üçün müvafiq təlimlərin təşkilini təmin etmək;

ix. əlil şəxslərdən şahid ifadəsinin alınması və təhqir hallarının ciddi araşdırlması məqsədilə, polis və ədliyyə sistemi əməkdaşları üçün müvafiq təlimlər təşkil etmək;

x. zorakılıq və təhqir hallarının baş verməsinin qarşısını almaq, bu tip halları müəyyən etmək və onlar barədə müraciət etmək istiqamətində əlil şəxslərə məlumatlar vermək;

xi. əlillərə qarşı bütün fiziki və ya mənəvi zorakılıq, xəsarət və ya təhqir, hörmətsizlik və ya saymazyana münasibət, pis rəftar, istismar və ya zorla qaçırılma hallarının qarşısını almaq məqsədilə, şəffaf qaydada çıxarılan güclü qərarlara əsaslanan səmərəli hüquqi, inzibati, məhkəmə və digər tədbirlər görmərk, habelə, vətəndaş cəmiyyəti tərəfindən müstəqil araşdırmaların aparılmasına imkan yaratmaq;

xii. Nazirlər Komitəsinin qadınların zorakılıq hallarından qorunmasına dair üzv dövlətlərə Rec(2002)5 saylı tövsiyəsinin müvafiq müddəalarını həyata keçirmək;

xiii. Nazirlər Komitəsinin əlil insanların hüquqi müdafiəsi prinsiplərinə dair üzv dövlətlərə R(99)4 saylı tövsiyəsinin müvafiq müddəalarını həyata keçirmək;

xiv. əlilliyi olan böyüklərin və uşaqların hüquq pozuntuları hallarından qorunmasına dair ResAP(2005)1 saylı tövsiyəni həyata keçirmək və müvafiq köməkçi hesabatları nəzərə almaq[2].

### *3.14. Fəaliyyət istiqaməti No. 14: Tədqiqat və inkişaf*

#### *3.14.1. Giriş*

Müfəssəl tədqiqatlar, statistik məlumatların toplanılması və təhlillər sübutlara əsaslanan siyasətin hazırlanması prosesini məlumatla təmin edir. Etibarlı məlumatlar qarşıya çıxan məsələləri müəyyən edir, həll yollarının tapılmasına yardım edir və səmərəli nəticələr verir. O, eyni zamanda, ən yaxşı təcrübələrin öyrənilməsi və cəmiyyətdə baş verən dəyişikliklərin izlənilməsi baxımından önəm kəsb edir.

Əlil insanlara dair məlumatın azlığı həm milli, həm də beynəlxalq səviyyədə siyasətlərin hazırlanmasında maneə hesab edilir. Tədbirlər Planında müəyyən edilən məqsədlərin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün əlilliyə dair bütün məsələlər üzrə müfəssəl, fərqli və xüsusi tədqiqatların dəstəklənməsi və genişləndirilməsi, eləcə də, onların bütün səviyyələrdə əlaqələndirilməsi tələb edilir.

#### *3.14.2. Məqsədlər*

i. Gələcəyə istiqamətlənən tədqiqat nəticələrinin siyasətlərə çevrilməsini dəstəkləmək vasitəsilə daha çox sübutlara əsaslanan siyasətlərin və standartların hazırlanmasını təşviq etmək;

ii. etibarlı və müqayisə edilə bilən tədqiqat məlumatlarının əldə edilməsi məqsədilə, milli və beynəlxalq səviyyədə statistik məlumat toplama metodologiyasını uyğunlaşdırmaq;

iii. əlil şəxslərin iştirakını təşviq etmək və onların həyat şəraitini yaxşılaşdırmaq məqsədilə, bütün mövcud tədqiqat və inkişaf potensialından hərtərəfli şəkildə istifadə etmək və onları dəstəkləmək;

#### *3.14.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Əlilliyin sosial və insan hüquqları modeli əsasında əlillik siyasəti və standartların hazırlanması prosesi üçün statistik və informasiya strategiyaları hazırlamaq, habelə, mövcud milli strategiyaların və məlumat bazalarının səmərəliliyini qiymətləndirmək;

---

[2] əlil böyük və uşaqların hüquq pozuntuları hallarından qorunmasına, Avropa Şurası Nəşriyyatı, Strasburq, 2003, ISBN 92-871-4919-4.

ii. ehtiyacların qiymətləndirilməsi nəticəsində əldə edilən məlumatların (fərdi qaydada etibarlı hesab edilir) milli, regional və yerli səviyyələrdə ümumi xidmət planlaşdırması və təminatı sisteminin məlumatla təchiz edilməsi məqsədlə istifadə edilməsini təmin etmək;

iii. müvafiq olduğu təqdirdə, ümumi tədqiqatların Tədbirlər Planının bütün uyğun sahələrini əhatə etməklə əlil insanların iştirakına dair məlumat verməsini təmin etmək;

iv. mümkün olduğu təqdirdə, əlil qadınların vəziyyəti barədə təhlilləri asanlaşdırmaq məqsədilə, tədqiqatın gender məsələlərini əhatə etməsini təmin etmək;

v. milli və beynəlxalq məlumat bazaları çərçivəsində qiymətləndirmə və təhlillərin aparılmasına imkan verən ümumi təsnifat sisteminin razılaşdırılması vasitəsilə tədqiqat işləri üzrə əlaqələndirilmiş yanaşma istiqamətində fəaliyyət göstərmək;

vi. bərpa və icmaya yenidən inteqrasiya məqsədi daşıyan uğurlu reabilitasiya tədbirləri üzrə tədqiqat işlərini dəstəkləmək;

vii. demoqrafik dəyişikliklərin və qocalma prosesinin əlil insanların həyat səviyyəsinə təsirini öyrənən tədqiqatları təşviq etmək;

viii. əlil insanların təmsilçilərini və digər müvafiq maraqlı tərəfləri tədqiqat strategiyasının hazırlanması və məlumatın toplanması proseslərinə cəlb etmək;

ix. əlil insanların müstəqil yaşamasına və cəmiyyətdə iştirakına töhfələr verə bilən yeni informasiya və kommunikasiya texnologiyalarının, texniki yardım vasitələrinin, məhsulların və alətlərin hazırlanması istiqamətində elmi-tətbiqi tədqiqatları dəstəkləmək;

x. bütün məhsullar üzrə tədqiqatlarda universal dizayn prinsiplərinin nəzərə alınmasını təşviq etmək;

xi. siyasətlərin məlumatla təmin edilməsi məqsədilə qabaqcıl təcrübə mübadiləsini, informasiyanın bölüşdürülməsini və müvafiq qurumlar arasında sıx əməkdaşlığı təşviq etmək;

xii. Tədbirlər Planının bütün müvafiq sahələrini əhatə edən siyasətlərin hazırlanması prosesini dəstəkləmək üçün uyğun tədqiqat və innovativ pilot layihələr həyata keçirmək;

### *3.15. Fəaliyyət istiqaməti No. 15: Məlumatlılığın artırılması*

#### *3.15.1. Giriş*

Əlil insanlar cəmiyyətdə iştirak və onun tam və bərabər hüquqlu üzvü hesab edilməsi baxımından bir çox maneələr ilə üzləşirlər. Əksər əlil şəxslər cəmiyyətin münasibətini onların tam inteqrasiyası istiqamətində ən böyük maneə hesab edirlər. Bu insanlar, hələ də, onların potensialı baxımından yaranmış yanlış fikirlərə, qorxulara, aşağı gözləntilərə və inamsızlığa əsaslanan qəbuledilməz münasibətlərlə qarşılaşırlar. Qeyd edilən münasibətlər müxtəlif maraqlı tərəflərin iştirakı ilə təşkil edilən səmərəli ictimai maarifləndirmə strategiyaları vasitəsilə dəyişdirilə bilər.

Son illərdə, üzv dövlətlər anti-diskriminasiya qanunvericiliyinin təkmilləşdirilməsi və sosial siyasət təşəbbüslərinin təşviqi istiqamətində müəyyən nailiyyətlər əldə etmişdir. Bu təşəbbüslər əlil insanların yerli icmalara inteqrasiyasını dəstəkləsə də, digər tədbirlərə də ehtiyac vardır.

Fəaliyyəti genişləndirmək məqsədilə üzv dövlətlər kütləvi informasiya vasitələri və münasibətlərin dəyişdirilməsinə kömək edə bilən digər sahələrdə əməkdaşlığı təmin etməlidir.

Əlillik və əlil insanlar barədə yaranan mövhumatların dəyişdirilməsi üçün əlil şəxslər reklam çarxlarında, ekranda, radioda, eləcə də, qəzet və jurnallarda tez-tez görünməlidirlər; yalnız bu zaman, cəmiyyətin bütün üzvlərinin münasibətlərində real dəyişikliklər baş verə bilər.

Cəmiyyət əlil şəxslərin digər insanlarla bərabər hüquqlara malik olması və onların bu hüquqlardan faydalanması istiqamətində maneələr yaradan və ya bunun qarşısını alan əngəllərin olması faktlarını qəbul etməlidir. Bu maneələrin aradan qaldırılması təkcə əlil şəxslər deyil, eyni zamanda, bütövlükdə cəmiyyət üçün faydalı olacaqdır. Bundan başqa, əlillik səviyyəsindən asılı olmayaraq bütün əlil şəxslərin cəmiyyətin fəal və tam hüquqlu üzvləri kimi verə biləcəkləri töhfələrin nümayiş etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

*3.15.2. Məqsədlər*

i. Müxtəlif tədbirlər vasitəsilə cəmiyyətin fəal və tam hüquqlu üzvləri kimi əlil şəxslərə olan münasibətini müsbət mənada dəyişmək;

ii. əlillik, əlil şəxslərin bərabər imkanlara malik olması hüququ və diskriminasiya hallarının qarşısının alınmasına dair məlumatlılığı artırmaq;

iii. əlil şəxslərin şəxsiyyətinə və maraqlarına xələl gətirə bilən bütün mənfi münasibətlərə qarşı mübarizə aparmaq.

*3.15.3. Üzv dövlətlər tərəfindən xüsusi tədbirlər*

i. Cəmiyyətin münasibətlərində dəyişikliklərə nail olmaq üçün əlil şəxslərin görüntülərini hökumətin bütün təşviqat və reklam tədbirlərində gündəmə gətirmək;

ii. məsələn, əlil insanların şərəf və ləyaqətinə dair etik təlimatların təşviqi vasitəsilə tam hüquqlu vətəndaşlar kimi əlil şəxslərin televiziya verilişlərində və mətbuatda təcəssümünün genişləndirilməsi və keyfiyyət baxımından yüksəldilməsi istiqamətində bütün kütləvi informasiya vasitələrini və media təşkilatlarını dəstəkləmək;

iii. ümumi proqramlarda, mümkün olan təqdirdə isə, xüsusi verilişlərdə əlil insanlarla bağlı məsələlərin müzakirə edilməsi istiqamətində televiziya və radio kanallarını dəstəkləmək;

iv. mümkün olan yerlərdə, əlil insanların hüquqları, potensialı və töhfələri barədə müntəzəm milli maarifləndirmə kampaniyaları təşkil etmək;

v. əlil insanların üzləşdiyi problemlərin uşaqların, gənclərin və böyüklərin diqqətinə çatdırılması üçün innovativ və digər praktik vasitələrdən istifadə etmək;

vi. media ilə münasibətlər baxımından təlimatların hazırlanması ilə əlil insanların və onları təşkilatlarının özlərini təbliğ etməsini dəstəkləmək;

vii. təhsil sahəsində, iş mühitində və icmada məlumatlılığın artırılması məqsədilə, həyatın bütün sahələrində qabaqcıl təcrübələrin mübadiləsini dəstəkləmək və təşviq emək;

## 4. Kəsişən məsələlər

### *4.1 Giriş*

Avropanın əlil əhalisi arasında xüsusi maneələr və ya iki dəfə artıq diskriminasiya ilə üzləşən insanlar vardır.

Bu insanların təcrid edilməsi riski daha böyükdür və onlar, adətən, cəmiyyətdə daha aşağı səviyyədə iştirak edirlər. Belə olan təqdirdə, xüsusi əlil əhali qrupunun cəmiyyətdə iştirakına imkan yaratmaq üçün siyasətçilər hazırladıqları inteqrasiyalı strategiya və siyasətlərində onların ehtiyaclarının nəzərə alınmasını təmin etməlidirlər.

Malaqa Bəyannaməsi Tədbirlər Planı boyunca nəzərdən keçirilən iki bu tip qrup müəyyən etmişdir - əlil qadınlar və daha çox qayğıya ehtiyacı olan əlil şəxslər. Əlil qadınlara və daha çox qayğıya ehtiyacı olan şəxslərə qarşı diskriminasiya halları üzrə İşçi Qrupunun hesabatlarında bu qruplar üçün səciyyəvi olan xarakterik amillər təhlil edilərək müxtəlif sahələri, o cümlədən, müstəqil həyat tərzi, təhsil, məşğulluq və s. məsələləri əhatə edən xüsusi tədbirlər tövsiyə edilmişdir.[3]

Çoxsahəli dəstəyə ehtiyacı olan digər qruplara əlil uşaqlar, yaşlı əlillər və etnik azlıqlardan olan əlillər (məsələn, qaraçılar, miqrantlar, qaçqınlar, məcburi köçkünlər və ya digər etnik, mədəni və dil baxımından olan azlıqlar) daxildir. Siyasətçilər sözügedən qrupların qarşılaşdığı maneələri və problemləri qəbul etməli, eləcə də, hazırladıqları siyasətlər vasitəsilə bu maneələri aradan qaldırmalı, hebələ, əlil şəxslərin digər vətəndaşlar kimi öz potensialından tam faydalana bilməsini təmin etməlidirlər.

### *4.2 Əlil qadın və qızlar*

Əlil qadın və qızlar[4] həm gender, həm də əlillik baxımından ikiqat diskriminasiya səbəbindən cəmiyyətdə iştirak etmək istiqamətində çoxsaylı maneələr ilə üzləşə bilər və çox zaman da üzləşirlər. Əlil insanlara dair ümumi vəziyyətin kifayət qədər yaxşılaşmasına baxmayaraq, cəmiyyətdə baş verən bu cür keyfiyyət dəyişikliyi heç də hər zaman əlil kişi və qadınlar arasında bərabər bölüşdürülməmişdir.

Əlil kişi və qadınlar arasında imkanlar balansını təmin etmək üçün müvafiq tədbir və siyasətlər hazırlanmalı və həyata keçirilməlidir. Yerli, regional və beynəlxalq, bir sözlə bütün səviyyələrdə əlillik və gender məsələləri ilə bağlı proqram və siyasətlərin hazırlanması zamanı əlil qadın və qızların xüsusi şəraiti nəzərə alınmalıdır.

Əlil qadınların digər qadınlar və kişilər ilə bərabər şəkildə öz hüquqlarından faydalanmasına mane olan bütün problemlərin aradan qaldırılması istiqamətində tədbirlər tələb olunur. Bu tədbirlər müxtəlif sahələri, o cümlədən, münasibətlər, valideynlər, ailə həyatı, gender, habelə, zorakılıq və təhqir hallarının qarşısının alınması məsələlərini əhatə edir. Buraya, eyni zamanda, siyasi və ictimai həyatda, təhsildə, təlimdə, məşğulluqda, həmçinin, sosial və mədəni tədbirlərdə bərabər iştirak imkanlarının təmin edilməsi üzrə tədbirlər də daxildir. Sözügedən siyasətlərin əksər hissəsi Tədbirlər Planının fəaliyyət istiqamətində öz əksini tapsa da, əlil qadın və qızların iştirakına təsir edən amillərin üzv dövlətlər tərəfndən necə həll edilməsi baxımından onlar bir daha nəzərdən keçirilməlidir.

---

[3] Əlil qadınlara qarşı diskriminasiya, Avropa Şurasının Nəşri, Strasburq, 2003, ISBN 92-871-5316-7, Daha çox qayğıya ehtiyacı olan əlil şəxslər üçün icma həyatı, Avropa Şurası, Strasburq, 2004.

[4] Tədbirlər Planında istifadə edilən əlil qadınlar ifadəsi əlil qızları da əhatə edir.

### 4.3 *Daha çox qayğıya ehtiyacı olan əlil insanlar*[5]

Əlil insanların daha həssas qruplarından biri mövcud durumunun ciddiliyi və mürəkkəbliyi səbəbindən daha çox qayğıya ehtiyacı olan şəxslərdir. Bu şəxslərin həyat səviyyəsi onların və ailələrinin ehtiyaclarına cavab verən və cəmiyyətdə mümkün qədər geniş iştirakını təmin edən müvafiq keyfiyyətli xidmətlərin mövcudluğundan çox asılıdır. Qeyd edilən xidmətlər əlil şəxslər üçün göstərilən ümumi xidmətlərdən fərqli olmalıdır.

Bu qrup əlillər əksər hallarda institutlarda yaşayır və ya bəzən ailələrdə yaşasalar da, xidmət təminatına və cəmiyyətin digər üzvlərinə çıxış imkanının az olması və ya olmaması səbəbindən təcrid olma riski ilə izləşə bilirlər. Məhz bu səbəbdən, sözügedən qrupa daxil olan əlillər onların xüsusi ehtiyaclarına uyğunlaşdırılan keyfiyyətli intensiv və daimi xidmətlər tələb edirlər.

İcma-əsaslı və ümumi xidmətlərə bərabər çıxış imkanları modelindən kənarlaşmamaq şərtilə ehtiyacların ödənilməsi məqsədilə, xidmət təminatının səviyyəsi gücləndirilməlidir. Üzv dövlətlər bunun üçün müxtəlif səlahiyyətli orqanlar, dövlət qurumları və xidmət təminatçıları arasında yerli və milli səviyyədə intensiv planlaşdırmanın və əlaqələndirmənin tələb olunduğunu nəzərə almalıdır.

### 4.4 *Əlil uşaq və gənclər*

Uşaq Hüquqları Konvensiyası dörd fundamental prinsipə əsaslanır – uşaq hüquqları diskriminasiyaya məruz qalmamalı; bütün qərarların qəbulu zamanı uşaqların maraqları yüksək səviyyədə nəzərə alınmalı; uşaqların yaşamaq və inkişaf etmək hüquqları qorunmalı; və uşaqların öz fikirlərini ifadə edə bilməsi hüququ təmin edilməlidir. Sözügedın hüquqlar əlil oğlan və qızlara da şamil edilir və üzv dövlətlər müxtəlif siyasət sahələri üzrə planlaşdırma, qərar qəbulu və icra proseslərini məlumatla təmin etmək üçün onların xüsusi ehtiyaclarını öyrənməlidirlər.

Əlil uşaqların öz ailələrində böyüməsi, yerli icmaların və uşaqların həyatına və tədbirlərinə inteqrasiya etməsi istiqamətində müvafiq yardımın təmin edilməsi məqsədilə, onların və ailələrinin ehtiyacları əlaqədar qurumlar tərəfindən ətraflı şəkildə qiymətləndirilməlidir. Həyat səviyyəsinin yüksəldilməsi və potensialından maksimum dərəcədə faydalanması üçün əlil uşaqların təhsilə ehtiyacı vardır.

Keyfiyyətli xidmət təminatı və ailələrə yardım strukturları uşaqlıq dövrünün səmərəli və məhsuldar olmasını təmin edə bilər və artıq böyüdükdə, müstəqil və iştirakçı həyat tərzi üçün özül yarada bilər. Bu baxımdan, uşaq və ailələr üçün əlillik siyasətləri və ümumi strategiyalar hazırlayan zaman siyasətçilər əlil uşaqların və onların ailələrinin ehtiyaclarını mütləq nəzərə almalıdırlar.

İştirak və fəal vətəndaşlıq dedikdə qərar qəbulu prosesində iştirak və ona təsir etmək, habelə, daha yaxşı cəmiyyətin qurulmasına töhfə verən müxtəlif tədbirlərə və fəaliyyət sahələrinə qoşulmaq üçün hüquqlara, vasitələrə, məkana, imkana və lazım olan təqdirdə isə, dəstəyə malik olmaq başa düşülür. Gənclər üçün proqram və siyasətlərin hazırlanması zamanı əlil gənclərin təşkilatları ilə məsləhətləşmələr aparmaq lazımdır. Əlil gənclərin fikirləri onlarla bağlı olan bütün sahələr üzrə nəzərə alınmalıdır.

Əlil gənclər, hələ də, bütün həyat sahələrinə çıxış imkanı baxımından maneələr ilə üzləşirlər: təhsil, məşğulluq, idman, mədəniyyət, əyləncə və icma həyatı. Bu problemlər, yalnız, müfəssəl strategiya vasitəsilə həll edilə bilər. Əlil gənclərin xüsusi ehtiyaclarını nəzərə alaraq, gənclərə dair istənilən siyasətin hazırlanması zamanı onların cəmiyyətdə tam iştirakının təmin edilməsi məsələlərinə

[5] Daha çox qayğıya ehtiyacı olan əlil şəxslər üçün icma həyatı, tədbirdən sitat.

toxunmaq lazımdır. Gənclərin yerli və regional həyatda iştirakına dair Avropa Xartiyasına uyğun olaraq, gənclərin yerli və regional səviyyələrdə qərar qəbulu və icra proseslərində fəal surətdə iştirak etməsi daha demokratik, inteqrasiyalı və mütərəqqi cəmiyyətlərin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

### *4.5. Yaşlı əlillər*

Yaşlı əlillər, xüsusilə də, xəstəlik səbəbindən daha intensiv qayğıya ehtiyacı olan şəxslər Avropanın müxtəlif cəmiyyətləri üçün yeni problemlər yaradır. Buraya xüsusilə, yaşlı valideynlərin əsas himayədar olduğu hallarda, fərdlər və onların ailələrinə yardımın göstərilməsi daxildir. Qeyd edilən problemin həll edilməsi üçün müxtəlif siyasət və xidmət sahələri üzrə innovativ yanaşma tələb edilir. Avropa Şurasının hesabatları bu qrup üçün mühüm məsələləri və həll yollarını müəyyən edir. Yaşli əlillərin mümkün qədər geniş səviyyədə cəmiyyətdə iştirakını təmin etmək üçün xüsusi ehtiyacları nəzərə alan əlaqələndirilmiş tədbirlərə ehtiyac vardır. Bu məqsədlə fərdi ehtiyacların qiymətləndirilməsi, perspektiv planların hazırlanması və zəruri xidmətlərin mövcud olması tələb olunur. Yaşlı əhali üçün siyasətlərin hazırlanması zamanı əlillik məsələləri də nəzərə alınmalıdır.

Tədbirlər Planının fəaliyyət istiqamətlərini müəyyən edən zaman yaşlı əlillərin gündəlik həyatda və tədbirlərdə iştirakına təsir edən amillərin və məsələlərin nəzərə alınması məqsədəuyğun hesab edilir.[6]

### *4.6. Etnik azlıqları və miqrantları təmsil edən əlil insanlar*

Etnik azlıq və miqrant icmalarından olan əlil insanlar, eləcə də, əlil qaçqınlar diskriminasiya və ya ictimai xidmətlər barədə məlumatın olmaması səbəbindən ciddi əlverişsiz şərait ilə üzləşə bilərlər.

Məsələn, Avropada qaraçılara yüksək səviyyədə diqqət yetirilsə də, onların cəmiyyətin tam və bərabərhüquqlu üzvlərinə çevrilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Onlarin öz icmaları daxilində əlil şəxslər "görünməz" insanlar və bununla da, xüsusi həssas qrup hesab edilir.

Təhsil, məşğulluq, ictimai səhiyyə xidmətləri və mədəni həyat məsələlərinə diqqətin yetirilməsi bütün qruplar üçün xüsusi əhəmiyyət kəsb edir.

Üzv dövlətlər etnik azlıqlardan olan əlil insanlara göstərilən yardım zamanı onların dil və mədəni xüsusiyyətlərinin, habelə, müvafiq ehtiyaclarının nəzərə alınmasını təmin etməlidir.

## 5. İcra və nəzarət

### *5.1. Giriş*

Üzv dövlətlərin hökumətləri milli səviyyədə əlillik siyasətlərinin və xüsusilə də, hər bir fəaliyyət istiqaməti üzrə onlarla əlaqəsi olan xüsusi tədbirlərin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

Tədbirlər Planında anti-diskriminasiya siyasətlərinin, idarəetmə aparatlarının, resursların, demoqrafik vəziyyətin və s. amillərin ölkələrdən asılı olaraq müxtəlif olması faktı nəzərə alınır. Bu baxımdan da, plan üzv dövlətlərə milli prioritetlər müəyyən etməyə və icra prosesi zamanı onlar üçün müvafiq olan istənilən vasitələrdən istifadə yanaşması tətbiq etməyə imkan verir.

---

[6] Yaşlı əlillərə dair məlumatların kəmiyyət və keyfiyyət təhlili çərçivəsi, Avropa Şurasının Nəşri, Strasburq, 1998, ISBN 92-871-3327-1.

Tədbirlər Planından əks olunan xüsusi tədbirlərin həyata keçirilməsi zamanı üzv dövlətlərin aşağıdakı məsələləri hərtərəfli şəkildə nəzərə alması tövsiyə olunur:

– Tədbirlər Planının əsas prinsiplərini, o cümlədən, şəxslərin diskriminasiya hallarından müdafiə edilməsi hüququnu, bərabər imkanlar hüququnu və vətəndaş kimi onların hüquqlarına hörmət prinsipini;

– kəsişən məsələləri, o cümlədən, əlil qadın və qızların, əlil uşaq və gənclərin, daha çox qayğıya ehtiyacı olan əlillərin, əlil yaşlıların, eləcə də miqrant və etnik azlıqlardan olan əlillərin xüsusi ehtiyaclarını (əlil insanlara xidmətlərin göstərilməsi zamanı keyfiyyət xidmətlərinin və təlimlərin əhəmiyyətli rolunu da nəzərə almaqla);

– yerli, regional, milli və Avropa səviyyəsində icra, monitorinq və qiymətləndirmə proseslərinin bütün mərhələlərinə əlil şəxslərin təmsilçilərinin cəlb edilməsi (bu çox əhəmiyyətli element hesab edilir).

*5.1.1 Universal Dizayn*

Bərabər çıxış imkanlarının təmin edilməsi tam inteqrasiyalı cəmiyyətin yaradılması istiqamətində mühüm əhəmiyyətə malikdir. Xüsusilə də, binaların, infrastrukturun, məhsulların, kommunikasiya və elektron sistemlərin dizaynı əlil şəxslərin həyatın müxtəlif sahələrində iştirakının və müstəqilliyinin dəstəklənməsi baxımından böyük önəm kəsb edir.

Universal dizayn infrastrukturun, xidmətlərin və məhsullarım çıxış imkanlarının və keyfiyyətinin yüksəldilməsinin səmərəli yoludur. Burada əsas diqqət infrastrukturun, binaların və məhsulların sonradan uyğunlaşdırılmasına deyil, elə ilk başdan çıxış imkanına malik olmasına yetirilir. Bəzi hallarda qədim və ya tarixi binaların tam çıxış imkanına malik olmasını təmin etmək mümkün olmadığı üçün, əlil insanların cəmiyyətin bütün sahələrində iştirak etməsinə və onun bütün infrastrukturlarından faydalanmasına mane olan hələ bir çox problemlər qalmaqdadır. Dizayn prosesinin bütün mərhələlərində universal dizayn prinsipinin dəstəklənməsi, geniş şəkildə tətbiq edilməsi və istifadəçilərin iştirakı infrastruktur, nəqliyyat və kommunikasiya sistemlərindən və məhsullardan istifadə imkanlarının artırılması baxımından böyük önəm kəsb edir.

*5.1.2. Xidmətlərin keyfiyyəti və işçi heyətinin təlimi*

Keyfiyyət və təlim Planın fəaliyyət istiqamətinin əsas prinsiplərini təşkil edir. Artıq, əksər Avropa ölkələri göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və işçi heyətinin təlimi istiqamətində sistemli işlər aparmağa başlamışdır. Bütün siyasətlərin, xidmətlərin və tədbirlərin yüksək keyfiyyət standartlarına uyğunlaşdırılması, eləcə də, səriştəli və təlim keçmiş əməkdaşlar tərəfindən icra edilməsi mühüm əhəmiyyət kəsb edir. Əlil insanlar xidmət təminatında mühüm rol oynamalıdır. Müştərinin ehtiyacının ödənilməsi səmərəli və keyfiyyətli xidmətlərin əsasını təşkil etməlidir. Xidmət istifadəçiləri olan əlil şəxslərin keyfiyyətin yoxlanılması və monitorinqi proseslərinə fəal surətdə cəlb edilməsi çox zəruridir.

Təlim də keyfiyyətli xidmət təminatında mühüm rol oynayır. Buraya təkcə əlillər üçün xüsusi və ya ümumi xidmətlərin göstərilməsi prosesində iştirak edən işçi heyətinin deyil, həmçinin, əlil insanların həyatına təsir edən siyasətlərin hazırlanmasına cəlb olunan şəxslərin də müvafiq təlimi daxildir. Təlimlər çərçivəsində, eyni zamanda, əlil şəxslər barədə insanların məlumatlılığı artırılmalıdır.

*5.1.3. Ümumilik və ya sektor çərçivəsində məsuliyyət*

Siyasətlərin hazırlanmasında və xidmətlərin təminatında ümumilik yanaşması və ya sektor çərçivəsində məsuliyyət prinsiplərinin nəzərə alınması daha inteqrasiyalı cəmiyyətin dəstəklənməsində mühüm rol oynayır və Tədbirlər Planının aparıcı, fundamental prinsipləridir. Ümumilik yanaşması əlillər üçün xidmətlərin digər vətəndaşlara göstərilən xidmətlərə inteqrasiya etməsini əhatə edir. Burada əsas məqsəd mümkün olan yerlərdə xüsusi (ayrıca) xidmətləri dəstəkləyən siyasətlərdən kənarlaşaraq ümumi xidmətlərə keçiddən ibarətdir. Lakin, ümumilik yanaşması əlil insanların maraqlarına ən yaxşı formada xidmət göstərən xüsusi siyasətlərin mövcudluğunu istisna etmir (bu baxımdan o "paralel yol" adlanır).

Praktikada bu yanaşma əlillik siyasəti üçün, artıq, təkcə xüsusi bir nazirliyin və ya şöbənin məsiliyyət daşımadığını göstərir. Hər bir nazirlik öz tədbiri çərçivəsində əlil şəxslərin hüquqlarının nəzərə alınmasını təmin etmək üçün məsuliyyət daşıyır. Ümumilik yanaşmasının dəstəklənməsi və genişləndirilməsi məqsədilə hökumət orqanları arasında və digər qurumlarla əlaqələndirmə və məsul strukturun yaradılması təşviq edilməlidir.

### *5.2. İcra*

Üzv dövlətlərin hökumətləri milli səviyyədə əlillik siyasətlərinin və xüsusilə də, hər bir fəaliyyət istiqaməti üzrə onlarla əlaqəsi olan xüsusi tədbirlərin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

Üzv dövlətlər Əlillik üzrə Tədbirlər Planının orijinal formasının təkrarlanmaması məqsədilə, hansı sahələrdə, artıq, uğurların əldə edildiyini və hansı xüsusi tədbirlərin həyata keçirilməli olduğunu müəyyənləşdirmək üçün mövcud siyasətlərin qiymətləndirilməsi və baza prinsiplərin hazırlanması ilə fəaliyyətə başlamalıdır.

Üzv dövlətlər bu qiymətləndirmələr əsasında özlərinin əlaqələndirilmiş əlillik siyasəti proqramı, strategiya və tədbirlərinin milli maliyyə resurslarına və Avropa Şurasının Əlillik üzrə Tədbirlər Planına uyğun olaraq tədricən təkmilləşdirilməsini təmin etmək üçün strategiyalar hazırlamalıdır.

Hazırlanan tədbirlərin prioritetləşdirilməsi və onlar üçün icra qrafikinin müəyyənləşdirilməsi hüququ hər bir üzv dövlətin öz ixtiyarına verilir.

Üzv dövlətlər tərəfindən həyata keçirilən Əlillik üzrə Tədbirlər Planının müvafiq maraqlı tərəfləri, xüsusilə də, əlil insanların qeyri-hökumət təşkilatlarını əhatə edən ümumi yanaşma vasitəsilə dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir.

İcra prosesinin tərkib hissəsi kimi üzv dövlətlər, müvafiq olduğu təqdirdə, əlillik meyarlarının müəyyənləşdirilməsi məsələsini nəzərdən keçirməlidir.

Üzv dövlətlər Tədbirlər Planını öz rəsmi dillərinə tərcümə etdirərək onun alternativ formatlarını hazırlayacaqdır. Uzunmüddətli dəstəyi təmin etmək məqsədilə üzv dövlətlər bütün maraqlı tərəflərin iştirakı ilə Tədbirlər Planını təşviq edəcəkdir.

Üzv dövlətlərin xahişi əsasında Avropa Şurası Tədbirlər Planının həyata keçirilməsində onlara yardım göstərəcəkdir. Üzv dövlətlər Avropa Şurası İnkişaf Bankı (AŞİB) və milli səviyyədə Tədbirlər Planının dəstəklənməsi məqsədini daşıyan digər müvafiq bank strukturları ilə əməkdaşlığı nəzərdən keçirə bilər.

### *5.3. Nəzarət*

Üzv dövlətlər Avropa Şurasının Tədbirlər Planının icrasına milli səviyyədə nəzarət etmək barədə məsuliyyət daşıyır və bu istiqamətdə müvafiq nəzarət və qiymətləndirmə mexanizmləri müəyyən edirlər. Bu məqsədlə, üzv dövlətlər müvafiq maraqlı tərəflər, xüsusilə də əlil şəxslərin qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparmalıdır.

Tədbirlər Planına Avropa səviyyəsində nəzarət çərçivəsində əsas diqqət əlillik sahəsində əməkdaşlığın gücləndirilməsinə və sistemli şəkildə səmərəli məlumat, təcrübə və qabaqcıl metodlar mübadiləsinə yönəldilməlidir.

Tədbirlər Planının icrası istiqamətində səmərəli nəzarət mexanizmi üzv dövlətlər tərəfindən Avropa Şurasına müvafiq məlumatların təqdim edilməsini tələb edir. Bu baxımdan, milli hökumət parlamentə hesabat verir. Eyni zamanda, qeyri-hökumət təşkilatları tərəfindən təqdim edilən hesabatlar və icmallar da mühüm əhəmiyyət və önəm kəsb edir.

Tədbirlər Planına nəzarət etmək üçün yaradılan forum bu prosesi, o cümlədən, zəruri prosedurları, icra qrafiklərinin müəyyənləşdirilməsini və mümkün ortamüddətli təhlilləri və s. məsələləri idarə edəcəkdir.
Sözügedən forum hərtərəfli təhlillərin aparılması üçün üzv dövlətlərə xüsusi prioritet məsələlər tövsiyə edə bilər. O, Əlillik üzrə Tədbirlər Planının icrası istiqamətində cari vəziyyət barədə Nazirlər Komitəsinin müntəzəm olaraq məlumatlandırılmasını təmin edəcəkdir.

Müəyyən edilmiş prosedur qaydaları əsasında əlil şəxslərin beynəlxalq qeyri-hökumət təşkilatları prosesdə iştirak edəcəkdir. Eyni zamanda, yaradılan forumun texniki tapşırığında müəyyən edilən qaydalara əsasən digər maraqlı tərəflər də prosesə töhfə vermək üçün dəvət edilə bilər.

*Tədbirlər Planının No1 Əlavəsi*

**Əlil İnsanlara dair "Vətandaş kimi tam iştirakın əldə edilməsinə doğru"**
**Malaqa Nazirlər Bəyannaməsi**

*(7-8 may 2003-cü il tarixində İspaniyanın Malaqa şəhərində təşkil edilmiş əlil insanlar üçün inteqrasiya siyasətləri üzrə məsul olan Nazirlərin İkinci Avropa Konfransında qəbul edilmişdir)*

1. Biz, İspaniya hökumətinin dəvəti ilə 7-8 may 2003-cü il tarixində Avropa Şurası tərəfindən təşkil edilən Nazirlərin İkinci Avropa Konfransında toplaşan əlil insanlar üçün inteqrasiya siyasətləri üzrə məsul olan nazirlər,

**1. Aşağıdakıları nəzər alırıq:**

2. Avropa Şurasının məqsədi qurumun nizamnaməsində qeyd edildiyi kimi "üzv dövlətlərin ümumi mirası olan ideya və prinsiplərin qorunması və həyata keçirilməsi, habelə, onların iqtisadi və sosial tərəqqisinin dəstəklənməsi məqsədilə üzv dövlətlər arasında daha sıx birliyə nail olmaqıdr";

3. Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən əlil insanlara dair sistemli siyasət üzrə R(92)6 saylı tövsiyənin qəbul edilməsi ilə nəticələnən 7-8 noyabr 1991-ci il tarixində Paris şəhərində təşkil edilmiş əlil insanlara dair siyasətlər üzrə məsul olna nazirlərin "Əlil insanlar üçün müstəqil həyat" adlı Birinci Konfransının nəticələrini;

4. əlil şəxslərin insan hüquqlarının və fundamental azadlıqlarının qorunması və dəstəklənmsi, habelə, onlardan tam istifadə edilməsi bu şəxslərin cəmiyyətdə fəal iştirak etməsi baxımından mühüm əhəmiyyət kəsb edir və əlil insanlar üçün bərabər imkanların təmin edilməsi prinsipi Avropa Şurasının üzv dövlətləri tərəfindən mühüm dəyər kimi qəbul edilir;

5. Avropa Əlillər Hərəkatının "Sözdən işə" adlı əlillik mövzusunda Avropa Şurasının İkinci Nazirlər Konfransı ilə bağlı 8 aprel 2003-cü il tarixində Madrid şəhərindən keçirilən Avropa QHT Forumunda qəbul etdiyi müraciəti;

6. Avropa Şurasının üzv dövlətləri arasında siyasi, iqtisadi və sosial vəziyyət baxımından ciddi fərqlərin olmasını, eyni zamanda, bir sıra dövlətlərin, xüsusilə də, keçid ölkələrinin müasir əlillik siyasətinin tələblərinə cavab vermək üçün lazımi potensaila malik olmaması ehtimalını və daha geniş məsləhət və yardıma ehtiyac duya bilməsini;

7. son on il ərzində Avropada baş verən müxtəlif dəyişikliklər səbəbindən meydana gələn və əhalinin həyat səviyyəsinə təsir edən, habelə, əlil insanlarla bağlı sistemli siyasətlərin hazırlanması üçün yeni imkanlarla yanaşı, bir sıra çətinliklər yaradan əlillik siyasətlərinin üzləşdiyi müəyyən siyasi, iqtisadi, sosial, demoqrafik, mədəni və texnoloji problemlərləri;

8. iki amilin əlil insanlarla, xüsusilə sıx əlaqəli olmasını: bir tərəfdən, həyatı boyu yardım xidmətlərindən asılılığın azaldılması və qocalıqda yüksək həyat səviyyəsinin saxlanılması prinsipləri əsasında nəzərə alınması tələb olunan Avropanın yaşlı əhalisinin sayının artması faktı; digər tərəfədən isə, tibb sahəsində elmi nailiyyətlərin yüksəlməsi və həyat şəraitinin yaxşılaşması nəticəsində fiziki və əqli qüsurlara malik insanların daha uzun və tam ömür sürməsi səbəbindən xidmət təminatı, iqtisadi dəstək və insan hüquqlarının qorunması baxımından yeni ehtiyacların yaranması faktı;

9. 2003-cü ilin Avropa İttifaqı tərəfindən Avropada Əlillər İli elan edilməsi və bunun əsas məqsədinin əlil insanların bərabər imkanlara malik olması hüquqları barədə məlumatlılığın artırılmasından, eləcə də, onların bu hüquqlardan tam və bərabər şəkildə faydalanmasının təmin edilməsindən ibarət oldğunu;

10. BMT-nin Xüsusi Komitəsinin "əlil şəxslərin hüquqlarının, şərəf və ləyaqətinin qorunması və dəstəklənməsi məqsədilə müfəssəl və inteqrasiyalı beynəlxalq konvensiyaya dair təkliflərin nəzərdən keçirilməsi" istiqamətində fəaliyyətini;

11. Avropa Şurasının Əlil İnsanların Reabilitasiya və İnteqrasiyasına dair Komitəsi tərəfindən həyata keçirilən və Sosial və İctimai Səhiyyə sahəsində Natamam Razılaşma çərçivəsində hökumətlərarası əməkdaşlığı genişləndirən fəaliyyətini;

12. Avropa Şurasının və digər beynəlxalq təşkilatların, institutların nailiyyətlərini və ya sözügedən bəyannamənin Əlavəsində əks olunan tədbirlər;

**2. Aşağıdakıları bir daha təsdiq edirik:**

13. İnsan Hüquqlarına dair Avropa Konvensiyasına uyğun olaraq, ölkələrimizin hüquq sistemi daxilində insan hüquqları və fundamental azadlıqlarının, bütün insanların azad doğulmasının, bərabər hüquq və şəxsiyyətə malik olmasının, cəmiyyətin inkişafına və maddi rifahına konstruktiv şəkildə töhfə verə bilmək potensialının, eləcə də, bütün insanların qanun qarşısında bərabər olmasının və bərabər hüquqi müdafiəyə malik olmasının təmin edilməsi barədə öhdəliklərimizi;

14. Avropa və digər beynəlxalq səviyyəli insan hüquqları barədə sənədlərdə əks olunan bütün insan hüquqları amillərinin əlillik də daxil olmaqla heç bir əsasda diskriminasiya və ya fərq qoyulmadan tətbiq edilməsini;

15. əlil insanlar üçün sistemli və inteqrasiyalı siyasətin təvfiq edilməsinə dair 1991-ci ildə Paris şəhərində təşkil edilən əlil insanlar üçün siyasətlər üzrə məsul olan Nazirlərin Birinci Konfransında səslənən niyyətlərimizi, habelə, "Əlil insanlar üçün sistemli siyast"ə dair R(92)6 saylı tövsiyənin ölkələr tərəfindən əlil insanların cəmiyyətdə tam iştirakında irəliləyişlərə səbəb olan siyasət və qanunların qəbul edilməsi ilə nəticələnməsini və bunun gələcəkdə istinad etmək üçün baza sənəd olmasını;

16. əlil insanların vətəndaşlıq və tam iştirak imkanlarının genişləndirilməsi məqsədilə onların öz həyatlarına nəzarət edə bilməsi üçün səlahiyyətlərinin artırılmasının və xüsusi yardım mexanizmlərinin tələb olunduğunu;

**3. Hesab edirik ki:**

17. iştirakçı və çıxış imkanına malik cəmiyyətin yaradılmasının bütün əhali üçün faydalı olmasını nəzərə alaraq, növbəti on il ərzində bizim məqsədimiz əsas diqqəti əlil şəxslərin cəmiyyətə inteqrasiyasına və onun həyatında tam iştiraka yönəltməklə bu şəxslərin və onların ailələrinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir;

18. əlil şəxslərin həyat səviyyəsinin yüksəldilməsi məqsədini daşıyan tədbirlər onların vəziyyətinin, potensialının və ehtiyaclarının məntiqli qiymətləndirilməsinə, xidmət təminatı sahəsində innovativ yanaşmaların hazırlanmasına əsaslanmalı, habelə, bu şəxslərin fikirlərini, hüquqlarını və şəraitini nəzərə almalıdır;

19. insan hüquqlarından, fundamental azadlıqlarından və tam vətəndaşlıq hüquqlarından faydalana bilməsi üçün, əsas diqqəti əlil qadınlara və daha çox qayğı tələb edən əlil şəxslərə yetirməklə bütün yaş qrupundan olan əlillərə qarşı diskriminasiya hallarının aradan qaldırılmasını dəstəkləyən növbəti Tədbirlər Planında yuxarıda qeyd edilən məqsədin əldə edilməsi üzrə müvafiq strategiya öz əksini tapmalıdır;

20. milli və beynəlxalq səviyyələrdə əlillik siyasətlərinin və qanunvericiliyin hazırlanması istiqamətində inteqrasiyalı yanaşmanın qəbul edilməsi və əlil şəxslərin bütün siyasət sahələrində, xüsusilə də, mənzil, təhsil, peşə təlimatları, təlim, məşğulluq, infrastruktur, ictimai nəqliyyat, informasiya, səhiyyə və sosial müdafiə kimi aparıcı sahələrdə lazımı səviyyədə nəzərə alınması mühüm əhəmiyyət kəsb edir;

21. hər bir əlil şəxsin həyatı boyu maksimum potensialının təmin edilməsi və əlilliyin qarşısının alınması məqsədilə iqtisadi, sosial, təhsil, məşğulluq və səhiyyə sahələri üzrə tədbirlərin hazırlanması prioritet məqsəd hesab edilir;

22. təhsil sosial inteqrasiyanın əsas elementi olduğundan əlil uşaqlar üçün ümumi məktəblərdə təhsil almaq imkanı yaradılmalıdır və uşağın marağına uyğun gəldikdə, orta və ya ali təhsildən əmək bazarına keçid dəstəklənməli və ömür boyu təhsil konsepsiyası hazırlanmalıdır;

23. əmək bazarına bərabər çıxış imkanı sosial inteqrasiyanın əsas elementidir; bu səbəbdən də, əlil şəxslərin əmək bazarna, xüsusilə də açıq əmək bazarına inteqrasiyası istiqamətində tədbirlər görülməli, əsas diqqət mövcud potensialın qiymətləndirilməsinə və fəal siyasətlərin həyata keçirilməsinə yönəldilməlidir. Belə ki, əlil şəxslər üçün adi əmək bazarına çıxış imkanının yaradılması vasitəsilə işçi qüvvəsinin müxtəlifliyinin təmin edilməsi bütövlükdə cəmiyyətin mənafeyinə xidmət edəcəkdir;

24. əlil şəxslərin həyatın bütün sahələri üzrə müstəqilliyinin və cəmiyyətə inteqrasiyasının artırılması baxımından texnologiyanın sosial xarakterinin dərk edilməsi və yeni texnologiyaların potensialından maksimum istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir;

25. tibb sahəsində elmi nailiyyətlərin yüksəlməsi və həyat şəraitinin yaxşılaşması nəticəsində fiziki, əqli və psixoloji qüsurlara malik insanların daha uzun və tam ömür sürməsi səbəbindən xidmət təminatı baxımından yeni ehtiyaclar yaranır ki, onlar da innovativ yanaşmalar vasitəsilə ödənilməlidir;

26. həyatın sonrakı mərhələlərində fiziki və əqli potensialın yaxşılaşdırılmasına nail olmaq üçün əhali arasında erkən yaşlarında sağlam vərdişlər və həyat tərzi prinsiplərinin aşılanması vasitəsilə ömür müddətinin yüksəlməsi faktının yardımçı xidmətlərdən asılılıq səviyyəsinin artması ilə nəticələnməməsini təmin etmək;

27. maneələrin aradan qaldırılması və yenilərinin yaranmaması üçün universal dizayn prinsipinin qəbul edilməsi tələb olunur;

28. daha çox qayğıya ehtiyacı olan əlil şəxslərin sayı az olsa da, onlar artmaqda davam edir və bu səbəbdən də, icma-əsaslı xidmətlər modelindən kənarlaşmamaq şərtilə bu şəxslər və onların ailələri ətrafında strukturların gücləndirilməsinə ehtiyac vardır;

29. əlil qadınların müstəqilliyinin, sərbəstliyinin, iştirakının və sosial inteqrasiyasının təmin edilməsi məqsədilə Avropada bu məsələyə böyük diqqət və xüsusi qayğı tələb olunur və atılan

addımlar əlillik siyasətlərinin hazırlanmasında gender məsələsinin ön plana çəkilməsini dəstəkləməlidir;

**4. Aşağıdakı istiqamətlərdə öhdəlik götürürük:**

30. anti-diskriminasiya və insan hüquqları çərçivəsində bütün siyasət sahələri üzrə əlil şəxslər üçün bərabər imkanlar təmin etmək;

31. əlillik səbəbləri və ya əlil şəxslərin kimliyi baxımından diskriminasiyaya yol verməmək;

32. infrastrukturda, ictimai obyektlərdə, kommunikasiya sistemlərində və mənzillərdə inkluziv texnologiyaların və universal dizayn prinsiplərinin tədricən qəbul edilməsi vasitəsilə əlil şəxslərin icmalarda müstəqil yaşamaq imkanlarını artırmaq;

33. ümumi xidmət təminatında, səhiyyə və hüquq sistemində bərabərliyin təmin edilməsi, eləcə də yerli, regional və milli səviyyələrdə məsuliyyətin artırılması məsələlərinə xüsusi diqqət yetirməklə hökumət orqanları arasında və digər qurumlar ilə əməkdaşlığı gücləndirmək;

34. əlil şəxsin özünün seçimini, müstəqilliyini, maddi rifahını və iştirak hüququnu nəzərə alan, habelə, zəruri müdafiəni, təlimatları və şikayətlərə müstəqil formada baxılmasını təmin edən müfəssəl və qərəzsiz qiymətləndirmə prosesinə əsaslanan rəsmi uyğunluq meyarları vasitəsilə müəyyən edilən ehtiyacların qarşılanması vasitəsilə keyfiyyətli xidmətləri dəstəkləmək və artıq mövcud olan mexanizmləri möhkəmləndirmək və güclədirmək;

35. təhsil imkanının yaradılması və əlil insanlara öz həyatına nəzarət edən şəxslər kimi münasibətin bəslənilməsi vasitəsilə onların həyatın bütün sahələrinə inteqrasiyasını təvfiq etmək;

36. əsas diqqəti mövcud potensialın, xüsusilə də peşə bacarıqlarının qiymətləndirilməsinə yönəltmək, eləcə də peşə təlimatlarının, təlimlərin və məşğulluğun əldə edilməsi imkanlarının yaxşılaşdırılması vasitəsilə əlil şəxslərin əmək bazarına inteqrasiyasını dəstəkləmək;

37. məşğulluq imkanının vətəndaşlıq, cəmiyyətdə iştirak və insan ləyaqəti prinsiplərinin yeganə amili olmadığını nəzərə almaqla, işləyib-işləməməsindən asılı olmayaraq əmək qabiliyyətli yaşda olan əlillərə olan diqqəti azaltmamaq şərtilə, əlil uşaqların, onların ailələrinin və yaşlı əlillərin ehtiyaclarını diqqətdə saxlamaq;

38. həyatın bütün sahələrində fəal iştiraka imkan verən yardımın artırılması məqsədilə, xüsusilə, yeni informasiya və kommunikasiya texnologiyaları sahəsində fundamental və tətbiqi tədqiqatlara göstərilən dəstəyi davam etdirmək;

39. təhsil, təlim, məşğulluq, sosial siyasət, iştirak, qərar qəbulu, gender, sosial iştirak, analıq, məişət və ailə həyatı və zorakılıq hallarının aradan qaldırılması sahələrində əlil qadın və qızlara xüsusi diqqət yönəltməklə kişi və qadınlar arasında, o cümlədən, cəmiyyətdə fəal iştirak baxımından səmərəli balansın yaradılması istiqamətində zəruri tədbirlər görmək;

40. daha çox qayğıya ehtiyacı olan əlil şəxslərin icmada yaşamaq potensialını səmərəli şəkildə artıra bilən tədbirlərin və xidmətlərin miqyasına dair təhlillər aparmaq, eləcə də, əlillik siyasətlərinin hazırlanması və qiymətləndirilməsi üçün lazım olan statistik məlumatları toplamaq;

41. əlil uşaqların öz ailələrində böyüməsi, yerli icmaların və uşaqların həyatına və tədbirlərinə inteqrasiya etməsi və təhsil alması istiqamətində müvafiq yardımın təmin edilməsi məqsədilə, onların və ailələrinin ehtiyaclarını əlaqədar qurumlar tərəfindən ətraflı şəkildə qiymətləndirmək;
42. ailə çərçivəsində yaşayışı dəstəkləmək üçün informasiya, təlim və yardımların, o cümlədən, psixoloji yardımın təmin edilməsi məqsədilə, qeyri-rəsmi qayğı təminatçısı olan ailələrin, ilk növbədə, əlil uşaqlara və ya böyük qayğıya ehtiyacı olan şəxslərə malik ailələrin ehtiyaclarını müfəssəl şəkildə qiymətləndirmək;

43. əlil insanların yaşlanmasını nəzərə alaraq onların ehtiyaclarını ödəyən proqram və mexanizmlər hazırlamaq;

44. həyatın sonrakı mərhələlərində maksimum fiziki və əqli potensiala malik olmaq üçün əhali arasında erkən yaşlarında sağlam vərdişlər və həyat tərzi prinsipləri aşılamaq;

45. müxtəlif maraqlı tərəflərin, o cümlədən, kütləvi informasiya vasitələrinin əməkdaşlığı ilə əlil insanların müsbət imicinin yaradılması istiqamətində fəaliyyət aparmaq;

46. çoxsaylı əlillik səbəblərinə və ya mürəkkəb xəstəliklərə malik olan, eləcə də, özləri iştirak edə bilməyən əlil şəxslərə xüsusi diqqət yetirməklə, əlil şəxsləri və onların təşkilatlarını bu şəxslərə birbaşa təsir edən siyasətlər barədə qərarların qəbulu prosesinə cəlb etmək;

47. sosial tərəfdaşların, eləcə də siyasətin hazırlanması prosesinə cəlb edilən dövlət və özəl sektoru təmsil edən digər maraqlı tərəflərin və iştirakçıların cəlb edilməsini və onlarla əməkdaşlığı təşviq etmək;

**5. Tövsiyə edirik:**

48. Nazirlər Komitəsi bütün üzv dövlətlərin tam şəkildə cəlb edilməsi şərtilə əlil şəxslərin tam vətəndaşlıq və cəmiyyət həyatında fəal iştirak hüququnun təmin edilməsi məqsədini daşıyan siyasətlərin dəstəklənməsi, eləcə də, Əlil İnsanların Reabilitasiya və İnteqrasiyası Komitəsini və Avropa Şurasının digər müvafiq komitələrini öz səlahiyyət sahələri çərçivəsində əlillik siyasətlərinin daha geniş təşviqinə sövq etməklə Avropa Şurasının əlillik məsələlərinə dair siyasətin hazırlanması üzrə beynəlxalq əməkdaşlıq platforması kimi rolunun gücləndirilməsi istiqamətində fəaliyyəti davam etdirsin;

49. Avropa Şurasının Əlil insanlara dair Tədbirlər Planı üzrə Nazirlər Konfransında qaldırılan məsələlərin nəzərə alınması ilə təhlillər aparılsın: insan hüquqları və müxtəlif iştirakçılar arasında tərəfdaşlıq prinsiplərinə əsaslanan Avropanın növbəti on il üçün yeni siyasət çərçivəsi praktik, münasib və davamlı siyasətlər vasitəsilə əlil şəxslərin tam vətəndaşlıq və icma həyatında fəal iştirak hüquqlarının təmin edilməsi istiqamətində strateji məqsədlər və prioritet məsələlər müəyyən edir;

50. Avropa Şurası insan hüquqları sahəsində öz zəngin təcrübəsinə əsaslanaraq "əlil insanların hüququnun, şərəf və ləyaqətinin qorunması və dəstəklənməsi üzrə müfəssəl və inteqrasiyalı beynəlxalq konvensiya üzrə təkliflərin nəzərdən keçirilməsi" məqsədilə keçiriləcək BMT-nin Xüsusi Komitəsinin növbəti yığıncaqları kontekstində danışıqlarda fəal suərtdə iştirak etsin.

**6. Dəvət edirik:**

51. Avropa Şurasının bütün üzv və müşahidəçi dövlətləri, eləcə də, Avropanın qeyri-hökumət təşkilatlarının nümayəndələri əlil insanlara dair sistemli siyasətin genişləndirilməsi və onların cəmiyyətə inteqrasiyası üzrə Şuranın tədbirlərində və işində iştirk edə bilər.

**7. Arzu edirik:**

52. Avropa Nazirlərinin sözügedən Bəyannaməsində əks olunan və Avropanın vahid xarakterik xüsusiyyəti kimi müəyyən edilən əlil şəxslərin insan hüquqları və fundamental azadlıqları, eləcə də, tam vətəndaşlıq hüququ və cəmiyyət həyatında fəal iştirak ilə bağlı olan inam, dəyər və prinsipləri hamı ilə, o cümlədən, Avropadan kənarda yaşayan insanlarla bölüşmək istərdik.

* * *

Son olaraq, konfransın yüksək səviyyədə təşkil edilməsinə və səxavətli qonaqpərvərliyinə görə İspaniya hökumətinə öz dərin təşəkkürümüzü bildirmək istərdik.

*Tədbirlər Planının No 2 Əlavəsi*

**İstifadə edilən mətnlər**

İnsan Hüquqları və Fundamental Azadlıqların Qorunmasına dair Konvensiya (ETS No. 5);

Avropa Sosial Xartiyası (ETS No. 35) və Yenidən Baxılmış Avropa Sosial Xartiyası (ETS No. 163);

Avropa Sosial Təminat Məcəlləsi (ETS No. 48), Avropa Sosial Təminat Məcəlləsinin Protokolu (ETS No. 48A), Yenidən Baxılmış Avropa Sosial Təminat Məcəlləsi (ETS No. 139);

Biologiya və tibb elmlərinin tətbiqi baxımından insan hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dair Konvensiya: İnsan Hüquqlarına və Tibbi-Biologiyaya dair Konvensiya (ETS No. 164);

Avropa Memarlıq İrsinə dair Konvensiya (ETS No. 121);

Landşaft Konvensiyası (ETS No. 176);

12 may 2000-ci il tarixində Avropa Şurasının Sosial İnteqrasiya Komitəsi tərəfindən qəbul edilən "Sosial İnteqrasiya Strategiyası";

Nazirlər Komitəsinin Hamı üçün İdman Avropa Xartiyasına dair R (86) 18 saylı tövsiyəsi: əlil insanlar;

Nazirlər Komitəsinin əlil insanlara dair sistemli siyasət üzrə R (92) 6 saylı tövsiyəsi;

Əlil insanların peşə potensialının qiymətləndirilməsinə dair xartiya üzrə ResAP(95)3 qətnamə;

Nazirlər Komitəsinin peşə və ailə həyatının uyğunlaşdırılmasına dair üzv dövlətlərə R (96) 5 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin ali təhsil almaq imkanlarına dair üzv dövlətlərə R (98) 3 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin asılılığa dair üzv dövlətlərə R (98) 9 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin əlil böyüklərin hüquqi müdafiəsinə dair üzv dövlətlərə R (99) 4 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin tibbi xidmətlərin təcrid edilmiş insanların tibbi ehtiyaclarına uyğunlaşdırılmasına dair üzv dövlətlərə Rec(2001)12 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin vətəndaşların yerli ictimai həyatda iştirakına dair üzv dövlətlərə Rec(2001)19 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin qadınların zorakılıq hallarından qorunmasına dair üzv dövlətlərə Rec(2002)5 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin kişi və qadınların siyasi və ictimai qərar qəbulu prosesində bərabər iştirakına dair üzv dövlətlərə Rec(2003)3 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin sosial hüquqlara çıxış imkanının yaxşılaşdırılmasına dair üzv dövlətlərə Rec(2003)19 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin psixi xəstəliklərə malik şəxslərin insan hüquqlarının qorunmasına dair üzv dövlətlərə Rec(2004)10 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin elektron səsvermənin hüquqi, praktiki və texniki standartlarına dair üzv dövlətlərə Rec(2004)11 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin elektron hökumətə dair üzv dövlətlərə Rec(2004)15 saylı tövsiyəsi;

Nazirlər Komitəsinin institutlarda yaşayan uşaqların hüquqlarına dair Rec(2005)5 saylı tövsiyəsi;

Avropa Şurasının Nazirlər Komitəsinin infrastrukturla əlaqəsi olan bütün peşə sahiblərinin təhsili proqramına universal dizayn prinsipinin daxil edilməsinə dair ResAP(2001)1 saylı qətnaməsi; ("Tomar Qətnaməsi");

Avropa Şurasının Nazirlər Komitəsinin "Yeni inkluziv texnologiyalar vasitəsilə əlil şəxslər üçün tam vətəndaşlıq prinsipinə doğru" ResAP(2001)3 saylı qətnaməsi;

Avropa Şurasının Nazirlər Komitəsinin əlil uşaq və böyüklərin təhqir hallarından qorunmasına dair ResAP(2005)1 saylı qətnaməsi;

Avropa Şurasının Parlament Assambleyasının əlil şəxslər üçün reabilitasiya siyasətlərinə dair 1185 (1992) saylı tövsiyəsi;

Avropa Şurasının Parlament Assambleyasının sağalmaz xəstə və ölüm ayağında olan şəxslərin insan hüquqlarının müdafiəsinə dair 1418 (1999) saylı tövsiyəsi;

Avropa Şurasının Parlament Assambleyasının "Onurğa sütünu zədələrinin müalicəsi və sağaldılması üzrə birgə səylərə doğru" adlı 1560 (2002) saylı tövsiyəsi;

Avropa Şurasının Parlament Assambleyasının "Əlil insanların tam sosial inteqrasiyasına doğru" adlı 1592 (2003) saylı tövsiyəsi;

Avropa Şurasının Parlament Assambleyasının Avropa Şurasının üzv dövlətlərində əl işarələri dilinin qorunmasına dair 1598 (2003) saylı tövsiyəsi;

Avropa Şurasının Parlament Assambleyasının uşaq müəssisələrində olan atılmış uşaqların şəraitinin yaxşılaşdırılmasına dair 1601 (2003) saylı tövsiyəsi;

Avropa Şurasının Parlament Assambleyasının uşaq müəssisələrində olan uşaqların hüquqlarına dair 1698 (2005) saylı tövsiyəsi;

Avropanın Yerli və Regional Hakimiyyət Orqanlarının Daimi Konfransının (hal-hazırda, Avropa Şurasının Yerli və Regional Hakimiyyət Orqanlarının Konqresi (Konqres) adlanır) əlil şəxslərin reabilitasiyası və inteqrasiyası: yerli hakimiyyət orqanlarının rolu adlı 216 (1990) saylı qətnaməsi;

Konqresin məşğulluq və həssas qruplara dair 129 (2003) saylı tövsiyəsi və 153 (2003) saylı qətnaməsi;

Gənclərin Yerli və Regional Həyatda İştirakına dair Yenidən Baxılmış Avropa Xartiyası (Konqres), 21 may 2003;

Avropa Şurasının Strasburq şəhərində təşkil edilən İkinci Sammitində qurumun üzv dövlətlərinin hökumət rəhbərləri tərəfindən qəbul edilən (1997) bəyannamə aşağıdakı prinsipi müəyyən etmişdir: "sosial inteqrasiya Avropanın ən böyük ehtiyaclarından biridir və insan hüquqları, şərəf və ləyaqətinin mühüm tamamlayıcısı kimi təmin edilməldir".

Avropa Şurasının Sosial hüquqlardan istifadə imkanlarına dair Konfransının yekun bəyannaməsi (Malta bəyannaməsi), 14-15 noyabr 2002;

Avropa Şurasının İnsan Hüquqları Komissarının fəaliyyəti;

BMT Uşaq Hüquqları Konvensiyası (1989);

BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Razılaşması (1966);

BMT-ninVətəndaş və Siyasi Hüquqlara dair Beynəlxalq Razılaşması (1966);

BMT-nin İnsan Hüquqlarına dair Universal Bəyannaməsi (1948);

BMT-nin Əlil insanlar üçün bərabər imkanların yaradılmasına dair standart qaydaları (1993);

UNESCO Salamanka Bəyannaməsi və Xüsusi təhsil üzrə tədbirlər çərçivəsi (1994);

Əhali qocalmasına dair İkinci Ümumdünya Assembleyasında qəbul edilmiş Qocalmaya dair Beynəlxalq Tədbirlər Planı, Madrid, 8-12 aprel 2002;

BMT-nin Qocalma üzrə Avropa Nazirlər Konfransında qəbul edilmiş (Berlin, 11-13 sentyabr 2002) Qocalmaya dair Madrid Beynəlxalq Tədbirlər Planı üçün Regional İcra Strategiyası;

Ümumdünya Səhiyyə Təşkilatının Xəstəlik, Əlillik və Şikəstliyə dair Beynəlxalq Təsnifatı (ICIDH) (1980);

Ümumdünya Səhiyyə Təşkilatının Funksiya, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifatı (ICF) (2001);

Beynəlxalq Əmək Təşkilatının (BƏT) (əlil şəxslərin) Peşə Reabilitasiyası və Məğulluğuna dair Konvensiyası, 1983 və BƏT-in (əlil şəxslərin) Peşə Reabilitasiyası və Məğulluğuna dair müvafiq Tövsiyəsi (No. R168), 1983

Əlil uşaq və gənclərin ümumi təhsil sisteminə inteqrasiyasına dair Avropa Şurasının qətnaməsi və Şuranın Təhsil Nazirlərinin 31 may 1990-cı il tarixdə keçirilən yığıncağı;

Əlil insanlar üçün bərabər imkanlar Komissiyasının müraciəti: Avropa İcmasının Yeni Əlillik Strategiyası (COM(96) 406 yekun);

Avropa Birliyi Şurasının qətnaməsi və əlil şəxslər üçün bərabər imkanlar mövzusunda üzv dövlətlərin hökumət nümayəndələrinin iştirakı ilə 20 dekabr 1996-cı il tarixində keçirlən görüş;

Əlil insanlar üçün avtomobil dayanacağı kartlarına dair Avropa Şurasının 4 iyun 1998-ci il tarixli tövsiyəsi (98/376/EC);

Əlil insanlar üçün bərabər məşğulluq imkanlarına dair Avropa Şurasının 17 iyun 199-cu il tarixli tövsiyəsi (1999/C 186/02);
Avropa Komissiyasının Avropa Şurasına, Avropa Şurası Parlament Assambleyasına, İqtisadi və Sosial məsələlər üzrə Komitəsinə və Regionlar Komitəsinə müraciəti: Əlil insanlar üçün maneəsiz Avropaya doğru (COM(2000) 284 yekun);

Peşə və məşğulluq sahəsində bərabər münasibətlər üzrə ümumi çərçivənin yaradılmasına dair Avropa Şurasının 27 noyabr 2000-ci il tarixli Direktivi (2000/78/EC);

Diskriminasiya hallarına qarşı mübarizə aparmaq istiqamətində İcma fəaliyyət proqramının yaradılmasına dair Avropa Şurasının 27 noyabr 2000-ci il tarixli qərarı (2001-2006);

2003-cü ilin Avropada Əlillər İli elan edilməsinə dair Avropa Şurasının 3 dekabr 2001-ci il tarixli qərarı (2001/903/EC);

"Elektron çıxış imkanı" - əlil insanların elm cəmiyyətinə çıxış imkanının yaxşılaşdırılması üzrə Avropa Şurasının 6 fevral 2003-cü il tarixli qətnaməsi (2003/C 39/03);

Əlil şagird və tələbələr üçün təhsil və təlim sistemində bərabər imkanlara dair Avropa Şurasının 5 may 2003-cü il tarixli qətnaməsi (2003/C 134/04);

Əlil insanlar üçün mədəni infrastruktura və tədbirlərə çıxış imkanına dair Avropa Şurasının 6 may 2003-cü il tarixli qətnaməsi (2003/C 134/05);

Əlil insanların məşğulluq imkanlarının və sosial inteqrasiyasının dəstklənməsinə dair Avropa Şurasının 15 iyul 2003-cü il tarixli qətnaməsi (2003/C 175/01);

Avropa Komissiyasının Avropa Şurasına, Avropa Şurası Parlament Assambleyasına, İqtisadi və Sosial məsələlər üzrə Komitəsinə və Regionlar Komitəsinə müraciəti: elektron cəmiyyətinə çıxış imkanı (COM(2005) 425 yekun);

Avropa Komissiyasının Avropa Şurasına, Avropa Şurası Parlament Assambleyasına, İqtisadi və Sosial məsələlər üzrə Komitəsinə və Regionlar Komitəsinə müraciəti: 2003-cü ilin Avropada Əlillər İli elan edilməsi ilə əlaqədar qərarın icrası, nəticələri və ümumi qiymətləndirilməsi (COM(2005) 486 yekun);

Avropa Komissiyasının Avropa Şurasına, Avropa Şurası Parlament Assambleyasına, İqtisadi və Sosial məsələlər üzrə Komitəsinə və Regionlar Komitəsinə müraciəti: Genişləndirilmiş Avropa Birliyində əlil insanların vəziyyəti: Avropa Fəaliyyət Planı 2006-2007 (COM(2005) 604 yekun);

Avropa Komissiyasının Avropa Şurasına, Avropa Şurası Parlament Assambleyasına, İqtisadi və Sosial məsələlər üzrə Komitəsinə və Regionlar Komitəsinə müraciəti: Əlil insanlar üçün bərabər imkanlar: Avropa Fəaliyyət Planı (COM(2003) 650 yekun);

2002-ci il tarixində Madrid şəhərində keçirilən Avropa qeyri-hökumət təşkilatları konfransı zamanı qəbul edilmiş "Sosial inteqrasiya sahəsində diskriminasiya hallarına yol verilməməsi və səmərəli nəticələrə malik tədbirlərin həyata keçirilməsi" adlı Madrid Bəyannaməsi;

Barselona Bəyannaməsi: Şəhər və Əlillər (1995);

Əlil insanların məşğulluğuna dair Avropa Sosial Tərəfdaşlarının Bəyannaməsi (Colon, may 1999);

Avropa Sosial Tərəfdaşlarının Avropa Əlillər İli ilə bağlı bəyannaməsi: Əlil insanlar üçün bərabər imkanların və məşğulluğa çıxış imkanının təşviq edilməsi (20 yanvar, 2003);

Avropa Əlillər Hərəkatının "Sözdən işə" adlı əlillik mövzusunda Avropa Şurasının İkinci Nazirlər Konfransı ilə bağlı 8 aprel 2003-cü il tarixində Madrid şəhərində keçirilən Avropa QHT Forumunda qəbul etdiyi müraciət.